www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 mart 2018-ci il Cümə axşamı № 48 (6937) Qiyməti 60 qəpik

**Xəbər**

## Orta məktəblərdə, elmi müəssisə və təşkilatlarda çalışanların maaşı artırıldı

yazısı səh.2-də

**Gündəm**

### Müxalifətin birgə aksiya istəyinə reaksiyalar



Bəxtiyar Sadıqov: "Seçkidə iştirak etmirsinizsə, gedin, yerinizdə

yazısı səh.3-də

### Namizədlərin imzatoplama problemi

yazısı səh.6-da

### Boş qalan təhsil naziri postuna təyinat seçkidən sonraya qaldı?

yazısı səh.5-də

### "Neftin qiymətinin düşməsi heç kimə sərf etmir" - İlham Şaban

yazısı səh.9-da

### Mirşahin Ağayev köhnə ANS-çilərlə yeni «Real TV» yaradır

yazısı səh.2-də

### NATO Bakıda Azərbaycan hərbçilərinə təlim keçir

yazısı səh.11-də

### Qərbin Suriya kürdlərinə dəstək və sevgisinin sirri

yazısı səh.12-də

### İşğalçını sülhə gətirməyin dinc yolu - əzici hərbi və iqtisadi üstünlük

yazısı səh.11-də

### "Nemtsovun adının ABŞ-da əbədiləşdirilməsi siyasi məna daşıyır" - Şahin Cəfərli

yazısı səh.12-də

### Bayramlar ayı olan martın fərqli iqtisadi çalarları

yazısı səh.13-də

### Tərkib eyni, qiymət fərqli: apteklərdəki qiymət fərqinin sirri

yazısı səh.15-də

## MDB paytaxtlarına şimaldan hədə kimi ismarış

# MOSKVADAN İKİBAŞLI MESAJ - BAKI SEÇİMƏ İTƏLƏNİR

SSRİ-nin aqibətini yaşamaq istəməyən Putin Rusiyasının "Yaxın xaric"ə qəzəbi artır - Qriqori Karasinin çoxmənalı tövsiyəsinin ilginc pərdəarxası; ABŞ-ın Rusiya əleyhinə getdikcə sərtləşən sanksiyaları postsovet ölkələrini də seçimlə üzləşdirə bilər, çünki...




yazısı səh.8-də

## Cahangir Hacıyev yenidən istintaqa cəlb edilir - "Hörümçək toru" əməliyyatı

Beynəlxalq Bank işi üzrə hələ də davam edən istintaq bankdan "buxarlanmış" pulları axtarır; sabiq bankirin səhhətində ciddi problemlər olsa da, ailəsi Londonda "kral ailəsi" kimi yaşayır

yazısı səh.4-də



İlqar Əliyev

### İntihar edən polkovnikin bütün əmlakı müsadirə edilir - etiraz

yazısı səh.4-də



*Sərdar Cəlaloğlu:*

### "Onların minnəti olsun ki, mənə dəstək verəcəklər"

yazısı səh.7-də



*Mübariz Əhmədoğlu:*

### "Azərbaycanda qeyri-ənənəvi təriqətlər möhkəmlənməyə çalışır"

yazısı səh.3-də



## Prezident orta məktəblərdə, elmi müəssisə və təşkilatlarda çalışanların əməkhaqlarını artırdı

**Prezident İlham Əliyev təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.**

Prezidenti İlham Əliyev dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında da sərəncam imzalayıb.

Dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

## Makedoniya prezidenti Azərbaycana gəlir

**Makedoniya prezidenti George İvanov mart ayında Azərbaycana səfər edəcək. Diasporla İş üzrə Dövlət Komitəsindən APA-ya verilən məlumata görə, səfərin məqsədi martın 15-18-də keçiriləcək VI Qlobal Bakı Forumunda iştirak etməkdir.**

G. İvanovun forum çərçivəsində Çinin siyasətinə həsr olunan panel müzakirələrdə çıxışı nəzərdə tutulub.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən forumda Albaniya prezidenti İlir Meta, Monteneqro prezidenti Filip Vuyanoviç, Moldova prezidenti İqor Dodon, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin baş naziri Binəli Yıldırım, xarici işlər naziri Mövlud Çavuşoğlu və digər dövlətlərin indiki və keçmiş prezidentləri, hökumət başçıları iştirak edəcək.

Forumun işində ümumilikdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri də daxil olmaqla, 500 nəfərə yaxın qonağın iştirakı gözlənilir.

Tədbir çərçivəsində Yaxın Şərq regionunda sülh və təhlükəsizlik məsələləri, Balkan regionunda mövcud geosiyasi vəziyyət, müasir dövrdə ictimai və siyasi həyatda gənclərin artan rolu kimi mövzular barədə müzakirələr aparılacaq.

bakcell

## "Bakcell"ə Papaq at və hədiyyə al! Misilsiz Novruz kampaniyası!

**«Bakcell» şirkəti Novruz bayramı münasibətilə öz abunəçilərinə pulsuz dəqiqə, SMS və meqabaytlar təqdim edəcək**

**Abunəçilər hər dəfə nömrənin balansını artırdıqda şirkətdən müxtəlif hədiyyələr alacaq**

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti hər il olduğu kimi bu il də öz abunəçilərini Azərbaycan xalqının ən sevimli bayramlarından biri olan Novruz bayramında bol-bol hədiyyələrlə sevindirir.**

**Qonşunun qapısına papaq atıb bayram şirniyyatı payını almaq ən sevimli Novruz adət-ənənələrindən biridir ki, həmin gözəl ənənəyə sadiq qalan «Bakcell» öz abunəçilərini qapısına virtual papaq atıb pulsuz dəqiqələr, SMS və Meqabaytlar qismində Novruz hədiyyələrini almağa dəvət edir. Belə ki, Novruz bayramı ərəfəsində nömrənin balansını ən azı 2 AZN məbləğində artıran hər bir əvvəlcədən ödənişli (prepaid) «Bakcell» abunəçisini gözəl təsadüfi hədiyyə gözləyir.**

**Fevralın 26-dan martın 31-dək davam edəcək hədiyyə kampaniyasına qoşulmaq olduqca asandır. Bunun üçün sadəcə "papaq" sözünü yazıb pulsuz SMS vasitəsilə 7777 nömrəsinə göndərmək kifayətdir. Kampaniyaya qoşulandan sonra abunəçi balansına hər dəfə ən azı 2 AZN məbləğində vəsait yükləyəndə "Bakcell"dən təsadüfi hədiyyə alacaq. Bu misilsiz hədiyyə kampaniyası çərçivəsində abunəçilər 100-ə qədər pulsuz şəbəkədaxili zəng dəqiqəsi, 100-ə qədər pulsuz ölkədaxili SMS və hətta 500 Mb-ə qədər pulsuz internet paketi və digər gözəl hədiyyələri qazana biləcəklər.**

**Qeyd edək ki kampaniya ərzində balans artımı və hədiyyələrin sayına görə heç bir məhdudiyyət yoxdur. Kampaniyada yalnız əvvəlcədən ödənişli (prepaid) «Bakcell» tariflərinin abunəçiləri iştirak edə bilər.**

**Odur ki, siz də "Bakcell"ə papaq atın və Novruz hədiyyələrinizi alın!**

**Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkəti bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, bu əziz bayram günlərində bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayır!**

# Məmmədyarov erməni girovluğunda qalan şəxslərin azad edilməsinin zəruriliyindən danışdı

### Xarici işlər naziri Elmar Məmmədyarov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Peter Maurer ilə görüşüb

**Xarici işlər naziri Elmar Məmmədyarov BMT-nin Cenevrə Bölməsinə rəsmi səfəri çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Peter Maurer ilə görüşüb.**

XİN-dən verilən məlumata görə, görüşdə Azərbaycan və BQXK arasında 20 ildən çox davam edən əməkdaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə olunaraq bu çərçivədə görülmüş işlər və əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. BQXK tərəfindən Azərbaycana göstərilmiş dəstək və yardımlar yüksək qiymətləndirilərək komitənin ölkəmiz üçün mühüm beynəlxalq humanitar tərəfdaş olduğu diqqətə çatdırılıb.

Elmar Məmmədyarov Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün humanitar aspektlərinə toxunaraq, 2014-cü ilin iyul ayında öz doğma torpaqlarını ziyarət edən zaman Ermənistan tərəfindən qanunsuz olaraq girov götürülmüş Şahbaz Quliyev və Dilqəm Əsgərovun azad edilməsinin vacibliyini diqqətə çatdırıb.



Nazir Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərində demoqrafik vəziyyətin dəyişdirilməsi, Suriyadan olan ermənilərin həmin ərazilərdə yerləşdirilməsi, qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər həyata keçirməklə beynəlxalq humanitar hüquq, xüsusilə Cenevrə konvensiyaları əsasında üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozduğunu vurğulayıb.

Həmçinin BQXK-nın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişə zonasının cəbhə bölgəsində yaşayan əhaliyə göstərdiyi humanitar dəstəyi, eyni zamanda itkin düşmüş şəxslərin ailələrindən bioloji nümunələrin toplanması kimi fəaliyyəti təqdir olunaraq gələcəkdə səmərəli qarşılıqlı əməkdaşlıq çərçivəsində bu kimi səylərin davam etdirilməsinin zəruriliyi vurğulanıb.

Görüşdə Azərbaycanla BQXK arasında əməkdaşlığın gələcək perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



## Mirşahin Ağayev köhnə ANS-çilərlə yeni «Real TV» yaradır

**ANS-in heyəti yeni telekanalla media məkana qayıdır. Mediada bununla bağlı yayılan şayiələri dünən ANS-in keçmiş əməkdaşı Ləman Ələşrəfqızı sosial şəbəkədəki statusunda təsdiqləyib. TV Real adlı bir səhifənin loqosunu paylaşan jurnalist "Real olan hər şey gözəldir" yazıb.**

Səhifəyə daxil olub, məlumatları incələyəndə isə bəlli olur ki, 21 fevraldan etibarən onun anonsu verilib. Bu günlərdə isə loqosu səhifədə yayılıb. "REAL TV"nin ilk vaxtlar internetdən yayımlanacağı gözlənilir. Bu, sınaq dövrü kimi xarakterizə edilir. Amma planlarda onun peyk yayımına keçməsi də yer alır.

**Ləman Ələşrəfqızı modern.az-a açıqlamasında yeni telekanala getdiyinə görə "Azərxalça"dakı işindən ayrılacağını bildirib:** "Mənə təklif gəlib və mən həmin televiziyaya gedirəm. Mən jurnalistikaya bağlıyam, jurnalistika üçün darıxıram. Mətbuat katibliyində özümü tapa bilmədim. Təki işlərimiz "REAL"laşsın. Hər şey qaydasında olacağı təqdirdə tamaşaçılarımız bizi yenidən görə biləcəklər".

«REAL TV»də əsasən ANS-in keçmiş və sınanmış əməkdaşlarının çalışacağı da yayılan məlumatlar sırasındadır. Televiziyada son hazırlıq işləri gedir, yaxın günlərdə bununla bağlı geniş açıqlama veriləcək.

❑ **SEVİNC,**
**"Yeni Müsavat"**

## "Nar" Barselonada keçirilən Mobil dünya konqresində iştirak edib

Gəlin birlikdə böyüyək

**"Nar" nümayəndə heyəti dünyanın aparıcı İKT şirkətləri, telekommunikasiya nəhəngləri və mobil operatorlarının qatıldığı Mobil dünya konqresində (GSMA Mobile World Congress) iştirak edib. İspaniyanın Barselona şəhərində keçirilən bu ənənəvi tədbirdə yeni bazar trendləri, texnologiya nailiyyətləri, çağdaş ideya və təşəbbüslər, mobil rabitənin gələcək perspektivləri kimi önəmli məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, interaktiv sessiyalar keçirilib, panellər və diskussiyalar təşkil edilib. Konqresə dünyanın İKT sahəsində fəaliyyət göstərən ən nəhəng şirkətlərinin rəhbərləri və baş icraçı direktorları da qatılıblar.**

**Tədbirdə aktiv iştirak edən "Nar" nümayəndə heyəti digər konqress iştirakçıları ilə birlikdə geniş diskussiyalara qatılaraq təcrübə mübadiləsi aparıb, telekommunikasiya sahəsində tətbiq edilən yeniliklər və innovativ dəyişikliklər haqqında öz fikirlərini bölüşübər. Hər zaman innovativ texnologiyalara üstünlük verən şirkətin rəhbər heyəti Mobil dünya konqresi çərçivəsində təşkil edilən mobil texnologiyalar sərgisində də fəal iştirak edib. Qeyd edək ki, dünyanın müxtəlif ölkələrindən olan yüzlərlə qonağın qatıldığı mötəbər tədbirdə fərqli sessiyalar keçirilib.**

**"Nar" haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**"Azerfon" MMC 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.**




## Sobçak debat zamanı Jirinovskiyə su atdı

**Rusiyada prezidentliyə namizədlərin "Rossiya 1" telekanalında debatında qalmaqal baş verib.**

APA-nın "life.ru" saytına istindən verdiyi məlumata görə, Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski prezidentliyə digər namizəd Sergey Baburin çıxış edən zaman yüksək tonla onu yalan danışmaqda ittiham edib.

Prezidentliyə namizədlərdən jurnalist Kseniya Sobçak V. Jirinovskini sakit olmağa çağırıb. V. Jirinovski isə K. Sobçakı təhqir edib, onu "axmaq", "kirli iyrənc qadın" adlandırıb.

Prezidentliyə namizəd Kseniya Sobçak isə Vladimir Jirinovskinin üzərinə su atıb.

## MTN-in sabiq şöbə rəisinin cəzası 12 ildən 5 ilə endirilib

**Bakı Apelyasiya Məhkəməsində ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) istintaq idarəsinin həbsdə olan sabiq şöbə rəisi Vüsal Ələkbərovun barəsindəki hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, hakim Qədim Babayevin sədrlik etdiyi iclasda qərar elan edilib. Qərara görə, şikayət qismən təmin olunub. Onun cəzası 5 ilə endirilib.

Qeyd edək ki, V. Ələkbərov Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) və digər maddələrlə ittiham olunur. V. Ələkbərov Bakı Hərbi Məhkəməsinin hökmü ilə 12 il müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə onun rütbəsinin geri alınması barədə qərardad da çıxarıb.

## Sabirabadda traktor azyaşlını vuraraq öldürdü

**Sabirabad rayonunda traktor 6 yaşlı uşağı vurub. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə rayonun Moranlı kəndində qeydə alınıb. Kənd sakini, 1982-ci il təvəllüdlü Hüseynov Elnur Əlisoltan oğlu idarə etdiyi "Belarus" markalı traktorla 2012-ci il təvəllüdlü Əsədli Cəlil Telman oğlunu vurub. Azyaşlı aldığı xəsarətlərdən hadisə yerində ölüb.**

Faktla bağlı Sabirabad Rayon Polis Şöbəsində araşdırma aparılır.

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018



# Müxalifətin birgə aksiya istəyinə reaksiyalar

## Milli Şuranın birlik istəyi uzunömürlü olacaqmı?; Bəxtiyar Sadıqov: "Seçkidə iştirak etmirsinizsə, gedin, yerinizdə oturun"

**Ölkənin aparıcı müxalif qurumlarından sayılan Müsavat, Milli Şura və REAL hərəkatı martın ortalarından etibarən birgə mitinqlər keçirə bilərlər. Bununla bağlı Milli Şura hər iki siyasi quruma müraciət ünvanlayıb. Artıq bu müraciətə Müsavat başqanı Arif Hacılı tərəfindən müsbət reaksiya verilib. REAL-ın isə qərarı həftəsonu məlum olacaq.**

**Bu barədə "Report"a açıqlama verən REAL-ın icraçı katibi Natiq Cəfərli bildirib ki, prezident seçkiləri öncəsi mitinqlərin keçirilməsi hökumətə arqument verəcək:** "Bu mitinqlər sərbəst toplaşmaq hüququnun tam təmin olunduğu görüntüsünü yaradacaq. Yəni bunun bir çox mənfi cəhətləri var. Bu mənim şəxsi fikrimdir. REAL hərəkatında qərarlar kollektiv şəkildə verilir. Milli Şuranın birgə mitinqlərin keçirilməsi ilə bağlı təklifini müzakirə edəcəyik. Müzakirələr zamanı məsələnin mənfi və ya müsbət tərəfləri, mövcud təhlükələr müzakirə olunacaq. İdarə Heyətinin qərarı İlqar Məmmədova da göndərilməlidir. O, həbsdə olduğu üçün operativ qərar qəbul edə bilmirik. Mitinqlə bağlı qərar bu həftənin sonuna qədər açıqlanacaq".

Mitinqlər məsələsi gündəmə çıxan kimi müxalif düşərgə daxilində sosial şəbəkələrdə bir sıra müzakirələr gedir. Yaranacaq birliyin əvvəlkilər kimi uzunömürlü olmayacağı, ən gec halda 11 apreldəki növbədənkənar prezident seçkilərindən sonra dağılacağı bildirilir. Milli Şuranın yalnız iki siyasi quruma müraciət ünvanlaması ətrafında gedən müzakirələrdə qurum sərt şəkildə qınanır. Bununla Milli Şuranın müxalifət daxilində növbəti narazılığın əsasını qoyduğu, bir növ düşərgəni parçaladığı vurğulanır. Bundan əlavə, vaxtilə Milli Şuranı tərk edən Müsavata müraciətin göndərilməsi heç də birmənalı qarşılanmayıb. Seçkilər öncəsi aksiyaların təşkil olunmasına qarşı çıxanlar da kifayət qədər çoxdur. Onlar hesab edirlər ki, hazırda belə mitinqlər daha çox hakimiyyət üçün sərfəlidir.

**Son bir ildə Milli Şura və Müsavat arasında birliyin yaranmasında maraqlı olan və bunun üçün danışıqlar aparan Müsavat Divanının üzvü Tofiq Yaqublu mitinqlərin baş tutacağını düşünür:** "Artıq ilkin razılaşma var, əlbəttə, mitinqlər olacaq. Hakimiyyət tərəfindən hər hansı bir manеələr yaradılmasa, mitinq elan olunacaq və keçiriləcək. Birgə mitinqi hər iki tərəf müsbət qarşılayır. Xoş iradə, niyyət ortadadır. Məsələnin texniki tərəfləri qalır. Geridə qalan hakimiyyətin işidir. Müxalifət sarıdan heç bir problem olası deyil. Konkret nə vaxt mitinqlərin keçiriləcəyini deyə bilmərəm. Hər şey nəzərə alınmalı, hesablanmalıdır. Həftənin hansı günü mitinqlər olsun, hava şəraiti, bayram günləri və digər bu kimi məsələlər razılaşdırılmalıdır. Bunlar da prinsipal, elə də ciddi mahiyyət daşımayan texniki məsələlərdir".



**REAL-ın İdarə Heyətinin üzvü Azər Qasımlı birgə mitinqlə bağlı hərəkatın daxilində çoxdan müzakirələrin getdiyini söylədi:** "Seçkilərdə nə edəcəyik, yaxud etməyəcəyik kimi müzakirələr aparmışıq. Birgə mitinq üçün rəsmi müraciəti təbii ki, dəyərləndirəcəyik. Yaxın bir neçə gün ərzində bu məsələ ilə bağlı qərarımız olacaq. Hər üç qurumun təmsilçiləri arasında görüşlər olmayıb. Hər halda, bizim iştirak etmədiyimiz dəqiqdir".

**Hakimiyyət müxalifətin keçirəcəyi mitinqlərdən narahat deyil. "Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov "Yeni Müsavat"a bunları dedi:** "O adam mitinq keçirmək, boykot fikrinə düşər ki, onun sosial bazası olsun. Bu gün Milli Şura, Müsavat və digər mitinq eşqinə düşən qurumların sosial bazaları yoxdur. Üzvləri onlardan üz döndəriblər. Siyasi qurumlar kimi nəinki xalq arasında, hətta öz üzvlərinin gözündən düşüblər. Yaxşı bilirlər ki, seçkilərə getsələr cüzi səs faizi ilə biabır olacaqlar. Qorxularından seçkilərdə iştirak etmirlər, bunun da adını boykot qoyurlar. Siz boykot etmirsiniz, öz biabırçılığınızın qarşısını almaq üçün seçkilərə getmirsiniz. Bunların durub seçkiqabağı mitinq edəcəklərini deməleri, sadəcə, gülüncdür. Sən nə deyirsən, nə istəyirsən? Onların mitinq keçirmək istəkləri cığallıqdan başqa bir şey deyil. Olmayan varlıqlarını biabırçı mitinqlərlə "sübut etməyə" çalışırlar. Əslində onlar heç nəyi onsuz da sübut edə bilmirlər. Çünki gücü olan partiya seçkilərə gedər. Siyasi partiyanı ona görə yaradırsan ki, hakimiyyətə iddialısan. Bunun üçün də nüfuzun, xalqı özünə cəlb etmək üçün ideyaların olmalıdır. Sizlərin isə heç nəyi yoxdur. Ona görə heç kim onlara inanmır. Onlar xaricdən gələn sifarişləri bu seçkilər öncəsi icra etməyə çalışırlar. Düşünürlər ki, indi sabitliyə bu yollarla xələl gətirə bilərlər. Yaxşı olar ki, bunlar atalar, sözündə deyildiyi kimi, "ayıblarına kor olsunlar". Seçkidə iştirak etmirsinizsə, gedin, yerinizdə oturun. Xalq əgər səni tanımırsa, nüfuzun yoxdursa, siyasət meydanından get. İndiyə qədər bu qurumların yaratdıqları hansı birliyin ömrü uzun olub ki, bunun da ömrü uzun olsun. Adətən bunlar bir-birini istəməkdən, fəaliyyətlərini uyğunlaşdırmaqdan deyil, bir dərddə olduqlarına görə birləşirlər. Birləşməklə azlıqlarını ört-basdır etmək istəyirlər ki, meydana çıxanda bir az çox görünsünlər. Amma bununla belə ortalığa çıxanda "Məhsul" stadionunun heç onda birini belə doldura bilmirlər. İndi bu üç qurum birgə mitinq keçirmək istəyirlər ki, bəlkə qaraltılarını göstərə bilərlər. Bunlar səmimi əməkdaşlıq etmirlər. Onlar haqqında daim deyirlər ki, bunlar mehriban düşmənlərdir. Müəyyən qısa bir zamanı birlikdə gedib, sonra yenə bir-birinin arxasınca danışmağa, bir-birilərinin kölgələrini qılınclamağa başlayacaqlar. İndiyə qədər belə olub, bu dəfə də belə olacaq".

**Milli Şuranın yalnız iki partiyaya müraciət etməsi ilə bağlı Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu Cəmil Həsənliyə müraciət edərək, ona sərt suallar ünvanlayıb:** "Əslində ilk baxışdan müxalifətin birliyinə hesablanmış kimi normal görünən bu çağırışın mahiyyəti bizləri və şəxsən məni üzdü və bir qədər də təəccübləndirdi . Bu səbəbdən də üzümü hörmətli Cəmil Həsənliyə tutub səslənirəm: "Siz müxalifəti birliyə çağıran məlum müraciətinizi edən zaman konkret olaraq iki quruma səsləndikdə həqiqətənmi düşünməmisiniz ki, seçkidə iştirak etməyən, bir sıra partiyaları, siyasi hərəkatları qıraqda saxlamaq cəhdinizlə elə müxalifəti parçalamış oldunuz?!

Siz həqiqətənmi düşünmədən bu müraciəti etmisiniz?! Düşünmürsünüz ki, digər müxalif qurumları qıraqda saxlamaq cəhdiniz yalnız və yalnız iqtidarın işinə yaramış olacaq?! Siz müxalifəti birləşdirmək əvəzinə, məlum müraciətinizlə, əksinə, müxalifəti qütblərə böldüyünüzün fərqindəsinizmi?!

Sizlər daha möhtəşəm aksiyaların hamılıqla, bütün siyasi qüvvələrin bərabər qaydada iştirakı ilə keçirilməsinə nə səbəbdən qarşı çıxırsınız?"

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# "Azərbaycanda qeyri-ənənəvi təriqətlər möhkəmlənməyə çalışır"

## Mübariz Əhmədoğlu: "Ölkəyə çox böyük təhlükələrdən biri də odur ki..."

**İraq və Suriyada sıxışdırılan İŞİD üzvləri Avropaya, Mərkəzi Asiyaya yayılmaqdadırlar. Yüksək təhlükəsizlik tədbirlərinin görüldüyü ölkələrə silah keçirə bilməyən terrorçular taktikanı dəyişir, yeni üsullardan istifadə edərək dinc insanların ölümünə yol açan terror aktları törədirlər.**



Azərbaycanda da vaxtilə radikal dini qruplaşmaların mövqeləri güclü olub. Lakin bununla belə, ölkədə bu kimi dini cərəyanlara xidmət edənlər vaxtaşırı aşkar olunaraq, məsuliyyətə cəlb olunublar. Məsələn, 2016-cı ildə Türkiyədə 15 iyul hadisəsindən sonra Azərbaycanda da Fətullah Gülənin tərəfdarları istintaqa cəlb edildi. O vaxt Baş Prokurorluq məlumat yayaraq bildirdi ki, Azərbaycanda da Türkiyədə dövlət çevrilişinə cəhddə ittiham olunan Fətullah Gülən tərəfdarlarına qarşı cinayət işi açılıb. Son zamanlar isə bu istiqamətdə sakitlikdir.

Bəzi təhlükəsizlik ekspertlərinə görə, Azərbaycanda radikal dini qruplaşmaların imkanları hələ də qalır, sadəcə, onlara hələ hərəkətə keçmək əmri verilməyib.

"Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirib ki, hazırda FETO-çulardan Azərbaycana qarşı heç bir təhlükə yoxdur: "Türkiyə prezidenti Ərdoğanın komandası bütün dünyada FETO-çuları ciddi şəkildə izləyir. Hesab edin ki, Türkiyənin bütün rəsmi dairələri tərəfindən dünyanın hər yerinə səpələnmiş gülənçilərin ad və soyadı toplanıb. Əgər Azərbaycanda onların üzvlərindən kimsə vəzifədə olsaydı, hökmən Türkiyə bunu vurğulayardı. Lakin nə ictimai, nə də digər formada eşitməmişəm ki, Türkiyə Azərbaycandan bu istiqamətdə nəsə tələb etsin. Mərkəzi Asiya dövlətləri ilə bağlı olan tələblərdən məlumatlıyam. Hətta son olaraq Türkmənistanda bir neçə alim, iş adamı tutuldu. Qazaxıstan, Özbəkistan, Qırğızıstanın da bu məsələdə mövqeyi bəllidir. Türkiyə bu məsələdə çox həssasdır. Azərbaycanda deyərdim ki, FETO mövzusu artıq qapanıb. Hər şeydən əvvəl onu da qeyd edim ki, bizim cəmiyyət də dini baxımdan fərqlidir. Görünür, cəmiyyət tərəfindən də müəyyən təpki olduğu üçün hansısa dini qruplaşmanın üzvləri üzə çıxa bilmirlər. Düşünürəm ki, bu kimi qruplaşmaların üzvləri ölkə ərazisində haradasa gizli formada toplanıb, yığıncaqlar təşkil edirlər. Vaxtilə adı FETO-çuların sırasında hallanan şəxslərin də indi verdikləri açıqlamalardan başa düşmək olur ki, bu insanlar artıq o yolda deyillər. Ancaq təbii ki, dini radikal qruplaşmalar Azərbaycan üçün də təhlükədir. Biz elə başa düşürük ki, dünya üçün bizim təkcə tranzit ölkə olmağımız maraqlıdır. Bəli, vacib coğrafi regionda yerləşirik. Lakin biz təkcə yaxşı mənada kimlərinsə marağında deyilik axı. O cümlədən bizim bu cür geosiyasi və coğrafi mövqeyimizi daimi ələ keçirmək istəyən dövlətlər olur".

**Ekspert bildirdi ki, Azərbaycanda qeyri-ənənəvi dinləri yaymaq istəyirdilər:** "Azərbaycan yeni müstəqil olan zaman bura xristian inhisarları gəlirdilər. Hazırda isə burada demək olar ki, xristian sektaları mövcud deyil. Hərəsi indiyə qədər müəyyən qədər gənclərimizin fikirlərini oğurlayıb, onları özləri tərəfə keçirə bilib. Son zamanlar isə bu istiqamətdə də aktivlik yoxdur. Qeyri-ənənəvi İslam dini təriqətləri isə müxtəlif istiqamətlər baxımından çox aktivdir. Yəni onlar da çalışırlar ki, Azərbaycanda öz mövqelərini gücləndirsinlər. Azərbaycan əhalisinin dinə sağlam münasibətindən istifadə edib, onları müxtəlif terrorçu qruplaşmalara qoşsunlar. Çox böyük təhlükələrdən biri də Azərbaycanda böyük əksəriyyət olan şiələrə xarici dövlətlərin münasibətindən irəli gələn hallardır. Əslində Azərbaycanın şiəliyi çox sağlamdır. Bunun hesabına güclü inkişaf yolu keçib, müstəqil dövlət qurmuşuq. Teatr, elm, dahi bəstəkarlar bizdə yetişib. Bu, bizim normal formada inkişaf edən şiəliyimizin hesabına baş verib. Ancaq bu gün Azərbaycanda şiəliyi dindən çıxarıb, siyasətə çevirmək cəhdləri var. Bu da təhlükəlidir. Azərbaycanda dinlə bağlı hesab edirəm ki, yeni konsepsiya işlənib hazırlanmalıdır. Ölkədə İslam cəmiyyəti formalaşdırılmalıdır. Şiələrin, hənəfilərin və digərlərinin qanuni maraqları qorunmalıdır. Bu təriqətlər ölkəni xətərli İslam təriqətlərindən qorumalıdır. Eyni zamanda xristian sektalarının da qarşısı alınmalıdır".

❑ Əli RAİS,
"Yeni Müsavat"

# Cahangir Hacıyev yenidən istintaqa cəlb edilir-"Hörümçək toru" əməliyyatı

## Beynəlxalq Bank işi üzrə hələ də davam edən istintaq bankdan "buxarlanmış" pulları axtarır; sabiq bankirin səhhətində ciddi problemlər olsa da, ailəsi Londonda "kral ailəsi" kimi yaşayır

**"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin həbsdə olan sabiq sədri Cahangir Hacıyevin saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsində səhhəti pisləşib. Modern.az xəbər verir ki, bu haqda C. Hacıyevin vəkili Aqil Layıcov bildirib. Vəkil bildirib ki, müvəkkili artıq sərbəst hərəkət də edə bilmir: "Ötən həftə ailəsi ilə telefonla danışıb və bildirib ki, sərbəst hərəkət edə bilmir. Onun ürəyində ciddi problem yaranıb. Onun ürəyində Haşimato sindromu xəstəliyi aşkarlanıb. Cahangir Hacıyev bir neçə dəfə anidən kliniki ölüm kimi hallar keçirir, ürək qısamüddətli dayanır. Bu da çox təhlükəlidir".**

**Vəkil bildirib ki, məsələ ilə bağlı Ədliyyə Nazirliyinə, Penitensiar Xidmət və Ombudsman Aparatına müraciət edib:** "Müraciət etmişik ki, ya Cahangir Hacıyevi müayinə etmək üçün kənardan həkim-kardioloq gətirilsin, ya da müalicə müəssisəsinə köçürülsün".

Bir neçə milyardın ölkə xaricinə daşınması və Beynəlxalq Bankın talanmasına görə 15 il həbs cəzası almış C.Hacıyevin yaxın vaxtlarda yenidən istintaqa cəlb ediləcəyi barədə xəbərlər var. İddiaların nə dərəcədə ciddi olduğunu indilikdə söyləmək çətindir, çünki Beynəlxalq Bank işi üzrə hələ də davam edən istintaq haqda geniş ictimaiyyətə geniş məlumat verilmir. Bəzi hallarda isə bankdan "buxarlanmış" pullar qeyri-rəsmi üsullarla axtarılır, hətta bəzi iş adamları sorğu-suala çağırılır. Mənbə "Yeni Müsavat" a deyib ki, Beynəlxalq Bankda Cahangir Hacıyevlə qudası Eldar Mahmudovun qurduğu "hörümçək toru"nu tam açmaq mümkün olmayıb. Bu səbəbdən C.Hacıyevlə bağlı istintaqın bitdiyini demək olmaz.


Cahangir Hacıyev

Yada salaq ki, bu ilin yanvarında onun ən yaxın adamlarından hesab olunan Emin Sadiq qonşu ölkələrdən birində yaxalanıb və Bakıya ekstradisiya olunub. İstintaqın versiyasına görə, E.Sadiq Cahangir Hacıyevin və Beynəlxalq Bank işi üzrə əsas fiqurantlardan biridir, bankın talanmasına yönəlmiş maliyyə maxinasiyalarının birbaşa iştirakçısıdır. E.Sadiq konkret olaraq Qazaxıstanda neft yatağının istismarına yönəlmiş investisiyanın mənimsənilməsində ittiham olunur. Söhbət Azərbaycan Beynəlxalq Bankının Rusiyadakı törəmə bankı "MBA-Moskva" tərəfindən ayrılmış 60 milyon dolların mənimsənilməsindən gedir. Habelə E.Sadiq "MBA-Moskva" bankına veksellərin satışında dələduzluq əməlinə yol verib.

Maraqlıdır ki, elə yanvar ayında hüquq-mühafizə orqanları sabiq milli təhlükəsizlik naziri, C.Hacıyevin qudası və biznes şəriki Eldar Mahmudovun ortaqlarından biri Sahib Ağayevi də Qazaxıstanda saxlayaraq, Bakıya gətiriblər.

İqtidarın C.Hacıyevə olası qəzəbi bunlarla da bitmir. Məlumdur ki, London Ali Məhkəməsi Azərbaycan Beynəlxalq Bankının (ABB) öhdəliklərinin könüllü restrukturizasiyası çərçivəsində Rusiyanın dövlət bankı olan "Sberbank" və "Franklin Templeton Investment Management Limited" şirkətinin (FTİML) banka qarşı iddialarını təmin edib.

Restrukturizasiya Azərbaycan qanunvericiliyi çərçivəsində həyata keçiriləcək 2018-ci ilin 30 yanvar tarixində yekunlaşmalı idi. Ali Məhkəmənin sənədlərinə əsasən, moratorium məhkəmənin qərarı olmadan kreditorlara ABB və ya onun əmlakına qarşı hər hansı bir tələb irəli sürməyə və ya bu tələbi davam etdirməyə icazə vermir. ABB öhdəliklərin restrukturizasiya müddətinin uzadılması ilə bağlı məhkəməyə müraciət etsə də, "Sberbank" və FTİML London məhkəməsinin 18 yanvar tarixli qərarını əsas gətirərək buna qarşı çıxıb.

Ekspertlərin sözlərinə görə, məhkəmə iddiaları üzündən restrukturizasiya planı baş tutmasa, 3,3 milyard dolları Azərbaycan hökuməti ödəməyə məcbur olacaq.

C.Hacıyevin, vəkilin dediyi kimi, səhhətində ciddi problemlər olsa da, ailəsi Londonda "kral ailəsi" kimi yaşayır. Xanımı və uşaqları Britaniya vətəndaşlığı alıb.

❑ "YM"

# İntihar edən polkovnikin bütün əmlakı müsadirə edilir-etiraz

## Ailə üzvü: "Həmin əmlaklar sırasında İlqara "Qara kəmər" əməliyyatında iştirakına görə verilən torpaq sahəsi də var"

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin rəis müavini olmuş polkovnik İlqar Əliyevin ailə üzvləri üzərinə həbs qoyulan əmlaklarının geri qaytarılması üçün məhkəməyə müraciət ediblər. "Report" bildirir ki, bu barədə Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev və mərkəzin əməkdaşı, polkovnik Azər Mehdiyevin hökmü ilə bağlı verilən apelyasiya şikayəti üzrə Bakı Apelyasiya Məhkəməsində elan olunub.**

Məlum olub ki, İ.Əliyevin ailə üzvləri E.Quliyev və A.Mehdiyevin barəsində Bakı Hərbi Məhkəməsinin çıxardığı hökmdən narazı qalıblar. Belə ki, məhkəmə hökm çıxaran zaman işdə olan İ.Əliyevə və ailə üzvlərinə məxsus üzərində həbs qoyulmuş əmlakın müsadirə edilməsi barədə qərar qəbul edib. Qərara əsasən, İ.Əliyev və onun ailə üzvlərinə məxsus əmlak cinayət yolu ilə əldə edilib. Həmin qərardan narazı qalan İ.Əliyevin ailə üzvləri apelyasiya şikayəti veriblər. Şikayət araşdırılması üçün hakim Sahibxan Mirzəyevin icraatına verilib. İ.Əliyevin ailə üzvlərinin şikayəti E.Quliyev və A.Mehdiyevin işi ilə birləşdirilib, eyni icraatda araşdırılacaq. Məhkəmənin növbəti iclası martın 15-nə təyin edilib.

Xatırladaq ki, İ.Əliyev 2015-ci ilin oktyabrında həbs olunub. O, həmin il dekabrın 20-də saxlandığı istintaq təcridxanasındakı kamerasında asılmış meyiti aşkar olunub. Bundan sonra İ.Əliyevin barəsində olan cinayət işi ayrıca icraata götürülüb, intihar etməsi ilə bağlı cinayət işinə xitam verilib. İ.Əliyevə məxsus Badamdar qəsəbəsində 12 sot torpaq sahəsi və 2 mərtəbəli villa (798 min manat), Badamdar qəsəbəsində 6 sot torpaq sahəsi (180 min manat), N.Nərimanov prospektində obyekt (418 min manat), Nabranda 6 sot torpaq (12 min manat), Şamaxı rayonu Avaxıl kəndində torpaq sahələri (12 min 400 manat), Mərdəkan qəsəbəsində bağ evi (192 min manat), Ceyranbatan qəsəbəsində 8 sot torpaq sahəsi (21 min manat), Göyçay şəhərində daşınmaz əmlak (114 min manat), Çöyçay rayonu Çərəkə kəndində 2 hektar torpaq sahəsi (7200 manat) olan əmlakaların üzərinə həbs qoyulub.



Bakı Hərbi Məhkəməsinin hökmü ilə E.Quliyev 10 il 6 ay, A.Mehdiyev isə 8 il azadlıqdan məhrum ediliblər. Hər iki təqsirləndirilən şəxsin rütbədən məhrum edilməsi barədə ölkə prezidentinə təqdimat göndərilməsi haqqında qərar qəbul edib.

Məhkəmə zərərçəkmişlərin mülki iddiasını təmin etməyib. E.Quliyevə qarşı Dövlət Təhlükəsizlik Xidmətinin 7 milyon manatlıq mülki iddiası təmin olunub. Təqsirləndirilən şəxslərin üzərinə həbs qoyulmuş mülklərinin müsadirə olunması barədə də qərar qəbul edilib. **İlqar Əliyevin ailə üzvlərindən biri adının açıqlanmaması şərti ilə "Yeni Müsavat"a deyib ki, siyahıda yer alan əmlaklardan ikisi ona məşhur əməliyyata görə ölkə rəhbərliyi tərəfindən hədiyyə edilib:** "Həmin əmlaklar sırasında İlqara "Qara kəmər" əməliyyatında iştirakına görə verilən torpaq sahəsi də var. Həmin torpaq sahəsi Ceyranbatan qəsəbəsində yerləşir. Həmin torpaq sahəsi ilə yanaşı Mərdəkanda bağ və medal da vermişdilər. Vəzifəli şəxs idi, ona torpaq sahələri bağışlayanlar olmuşdu. Bu gün yalan çox yazılır. İlqar Əliyevin Badamdarda bir evi var, həmin evdə də ailəsi, uşaqları yaşayır".

**Ailə üzvü deyir ki, İlqar Əliyevin həyat yoldaşı işləyir və övladlarını dolandırır:** "Şükür Allaha, yoldaşı da işləyir, dolanırlar. Uşaqlar oxuyur, dövlətə, millətə layiqli övladlar olacaqlar. Bizim ailə ziyalı ailə olub. Biz milyonçu deyilik. İlqarı bu gün cəmiyyətə başqa cür təqdim edirlər. Xalqa nə məlumat verirlər, ona da inanır".

Eyni zamanda məlum olub ki, İlqar Əliyevin bacısı oğlu da məhkəməyə iddia verərək əmək kitabçasında yer alan qeydlərin ləğvini tələb edir. İlqar Əliyevin bacısı oğlu Milli Təhlükəsizlik Nazirliyi ləğv olunana qədər orada Əks Kəşfiyyat İdarəsində çalışıb. 2015-ci ilin oktyabrında MTN-dəki məlum həbslərdən sonra İlqar Əliyevin bacısı oğlu işdən kənarlaşdırılıb, əmək kitabçasında işdən kənarlaşdırılmasının səbəbi kimi xidməti uyğunsuzluğu göstərilib. Lakin Əliyevin bacısı oğlu bu qeydlə razı deyil və artıq 3 ildir ki, məhkəmələrdə bu qeydin ləğvini tələb etməkdədir.

**İ.Əliyevin ailə üzvü bildirib ki, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və digər iş yoldaşları onun ailəsinə hər hansı bir köməklik etmirlər. Tam olaraq əlaqəni kəsiblər.**

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Mediada yol qəzalarının artması ilə bağlı müzakirələr intensivləşib. Bu, artıq bir sosial bəlaya çevrilib. Problemin həlli istiqamətində hökumət vaxtaşırı tədbirlər görür: cərimələrin məbləği artırılır, cəzalar sərtləşdirilir. Lakin bütün bunlar sürücülərin və piyadaların qaydaları kobud şəkildə pozmalarının qarşısını almaq üçün yetərli olmur. İnsanlar sükan arxasına keçib, mənzil başına yetişmək əvəzinə, son mənzilə gedirlər bəzi hallarda.**



**Azər AYXAN**

# Yol qəzalarında niyə ölürük, cənab deputat...

Hər gün ölümlə nəticələnən yol qəzaları haqda xəbərlər eşidirik. Yaxşı, əgər bu sahədə qanunu, qaydanı pozanlara qarşı cəzalar sərtləşdirilibsə, cərimələr artırılıbsa, qəzaların azalmamasının səbəbi nədir?

Yeri gəlmişkən, cərimələr artırılanda, cəzalar sərtləşdiriləndə bəzən cəmiyyətin müxtəlif təbəqələrindən narazılıqlar eşidilir. Yol polisini bu qədər sərt davranmaqda qınayanlar tapılır. Amma bu mövqedən çıxış edənlər Avropa ölkələrindəki analoji cərimə və cəzalara diqqət etmirlər. Hələ bu qədər müşahidə kameraları, yol polisinin intensiv nəzarəti, yüksək məbləğli cərimələr ola-ola sürücülər və piyadalar həm özlərinin, həm də başqalarının həyatına təhlükə yaradan davranışlara yol verirlər, görün, cəzalar mülayim olsa, yol polisi güzəşt etsə, hansı faciələr yaşanar.

Qayıdaq yuxarıdakı sualın cavabına. Yəni bu qədər tədbirlərdən sonra qəzalar nədən minimum həddə düşmür?

Ən birinci ona görə ki, yol hərəkəti qaydalarına əməl etmək, polisin tələbinə tabe olmaq bir mədəniyyət məsələsidir. Bu, hər şeydən öndə gəlir - inzibati cəzadan da, qadağalardan da. İnsanlar yeraltı və yerüstü keçidi qoyub, yolun piyadalar üçün qadağan edilmiş hissəsindən keçirlərsə, bu zaman avtomobil onları vurub öldürürsə, ən yaxşı halda şikəst edirsə, buna yol polisi neynəsin, qanun neynəsin?! Yaxud məsələn, sürət həddi 90 olan yerdə, kimsə saatda 180 km sürətlə maşın sürürsə, artıq o sürücü təkcə hansısa piyadanın üstündən keçmir, həm də qanunların, dəyərlərin üstündən dörd təkərlə şütüyüb ötür.

Cəmiyyət təkcə yazılı qanunlarla idarə olunmur. İnsanlar həyatlarını həm də yazılmamış qanunlarla qururlar, tənzimləyirlər. İctimai yerdə tualet ehtiyacını ödəməyi qadağan edən qanuna nə gərək var? Hamı bilir ki, küçənin ortasında təbii ehtiyacı ödəmək ayıb əməldi. Normal adamlar bunu etmir. Bu, artıq bir əxlaq, mənəviyyat məsələsidir. Yol hərəkətini kobud şəkildə pozmaq da qanunsuzluqdan öncə, mədəniyyətsizlikdir.

Fikir vermisiz yəqin, yol polisinin saxladığı maşının sürücüsü sənədi təqdim etmədən öncə, mobil telefonla kiməsə zəng edib, yol verdiyi qanunsuzluğa göz yumulmasını istəyir. Sonra da mobil telefonu yol polisinə uzadıb, "filankəs müəllimdi, danış" deyə az qala polisə əmr verir. Gürcüstanda belə bir halla qarşılaşa bilərsizmi? Türkiyədə necə, trafik polisi ilə kim belə rəftar etməyə cürət göstərər? Hələ Avropa ölkələrini demirik. Orda bu cür hərəkət edən sürücünü qandallayıb təcridxanaya salarlar. Biz azərbaycanlılar xarici ölkələrdə olarkən bu qaydalara yüksək səviyyədə əməl edirik. Öz ölkəmizdə isə sanki bilincli şəkildə, inadına qaydaları pozuruq.

Bu günlərdə yol qəzaları ilə bağlı saytlardan birində deputatların fikirlərinə rast gəldim. Mövzu artan yol qəzaları, bu bəladan çıxış yolları haqda idi. Aktual mövzu olduğundan, mediada bu haqda vaxtaşırı yazılır. Jurnalist həmkarım mövzu ilə bağlı deputat Rəfael Cəbrayılovun da fikirlərini öyrənib. Sitat: **"Statistikaya baxanda adama elə gəlir ki, sanki Azərbaycanın yollarında müharibə gedir. Mən bir neçə il əvvəl bu statistikanı araşdırdım və məlum oldu ki, 2014-cü ilə qədər hər il yol qəzalarında 1200-ə qədər insan həyatını itirirdi. Bu çox böyük rəqəmdir. Nəzərə alsaq ki, bunun 3 misli qədər də bədən xəsarəti alan insanlar olur. Qarabağda aktiv döyüş əməliyyatları gedəndə isə il ərzində heç vaxt Azərbaycanda 1200 insan həyatını itirməyib. 2017-ci ildə bu rəqəm aşağı düşüb. Belə ki, ötən il yol-nəqliyyat hadisəsi nəticəsində 750 nəfər həlak olub. Bu rəqəmin özü də böyükdür. Əgər Azərbaycan qədər əhalisi olan Avropa ölkələri ilə Azərbaycan müqayisə etsək görərik ki, bizdə vəziyyət heç də ürəkaçan deyil. Çünki Avropa ölkələrində hər 100 avtoqəzada ölüm faktı 2-4 olduğu halda, bizdə isə il ərzində 1200-ə qədər adamın dünyasını dəyişdiyi vaxtlarda ölüm faizi 30-dan artıq olurdu. Təsəvvür edin ki, İsveçin əhalisi təxminən bizim ölkənin əhalisi qədərdir, amma avtoqəzalarda ölüm sayı cəmi 2,2 faizdir. Avstriyada 2,7, Türkiyədə 5 faizdir".**

Hər şeydən öncə, deputatın bu açıqlamasındakı bəzi ziddiyyətlər diqqətimi çəkdi. Rəfael Cəbrayılov həm deyir, 2014-cü ilə qədər hər il yol qəzalarında 1200-ə qədər insan həyatını itirirdi, həm də bildirir ki, 2017-ci ildə bu rəqəm 750 nəfərə düşüb. Fəqət, o, bu rəqəmdən narazıdır. Haqlıdı əslində. Biz də narazıyıq, narahatıq. Vətəndaşlarımız hansısa sürücünün harın davranışının, cahilliyinin, qanmazlığının güdazına gedir. Fəqət, sabah yol polisi, tutaq ki, Rəfael müəllimin özünü, ya da yaxınlarını yol hərəkəti qaydasını pozduğuna görə saxlasa, səlahiyyətlərindən sui-istifadə edib, cərimədən, cəzadan yayınmayacaqlarına kim qarantiya verər? Bu cür səlahiyyətli adamlar nümunə göstərirmi? Hansı deputat, icra başçısı, nazir qohumu qaydanı pozanda polis onun maşınını cərimə meydançasına apara bilir? Az hallarda olur. Onda da elə hay-küy salırlar ki... Aləmi bir-birinə vururlar. Bəzi deputatlar Milli Məclisin tribunasından "biz toxunulmazıq, bizim avtomobili saxlamaq olmaz" deyib, etiraz edirlər. Sonra da jurnalistlərə deyirlər ki, yol qəzalarının artmasının səbəbi filandı... Sən özün nümunə göstər, yaxınlarını da bu cür nümunəvi davranmağa vadar et, gör avtoqəzalar artır, yoxsa azalır.

İndiyədək onlarla məmurun, deputatın yaxınlarının törətdiyi dəhşətli qəzalarda nə qədər insan həlak olub. Bu əməl sahibi olanların vəzifəli ataları ölkə prezidenti İlham Əliyev tərəfindən sərt formada cəzalandırılıb. Təəssüf ki, bu cür neqativ hallar hələ də qalır. Əsas problem məmur övladlarının, digər səlahiyyətli şəxslərin yaxınlarının avtoxuliqanlığını, özbaşınalığını aradan qaldırmaqdır. Sadə vətəndaş görsə ki, ona rəhbərlik edən vəzifəli şəxsin, onu parlamentdə təmsil edən deputatın özü, övladı qayda pozduqda səlahiyyətindən sui-istifadə etmir, qanuna tabe olur, o zaman kimsə qanunu pozmağa cürət etməyəcək.

# Boş qalan təhsil naziri postuna təyinat seçkidən sonraya qaldı?

**Azərbaycanda 3 aya yaxındır ki, təhsil naziri postu boş qalıb. Belə ki, ötən ilin 5 dekabr tarixində prezident İlham Əliyev Mikayıl Cabbarovun təhsil naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Onun yerinə isə hələ də təyinat olmayıb.**

Ötən 3 ay ərzində mətbuatda təhsil naziri postuna namizəd kimi fərqli-fərqli şəxslərin adı çəkilib. Onlar arasında hazırkı müavin və nazirliyi idarə edən şəxs Ceyhun Bayramov, Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadə, Bakı Neft Məktəbinin rektoru Elmar Qasımov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmovun adlarını qeyd edə bilərik. Bu şəxslərin adları çəkilsə də, özləri konkret olaraq məsələ ilə bağlı açıqlama verməyiblər. Yalnız Abel Məhərrəmovun adı mətbuatda təhsil naziri postuna namizəd kimi hallanan zaman Bakı Dövlət Universitetinin mətbuat xidməti məlumat yayaraq, iddiaların yalan olduğunu bildirdi.

Qarşıdan prezident seçkisi gəlir. Bu baxımdan hesab olunur ki, təhsil naziri postuna təyinat, seçkidən sonra yeni aprel ayının sonlarına doğru baş tuta bilər. Nazirliyin bu qədər başsız qalamasının ölkənin təhsil sisteminə hər hansı bir təsirləri varmı?

**"Yeni Müsavat"a danışan təhsil eksperti Kamran Əsədov hesab edir ki, bu halın təhsil sisteminə təsiri var:**

"Posta təyinatın olmaması birinci bu sualı ortaya çıxarır ki, ötən illər ərzində Azərbaycan təhsili özünü idarə edə biləcək kadrı yetişdirməyibmi? Nəzərə alaq ki, Azərbaycanda 54 universitet, 4500 məktəb,170 minə yaxın müəllim kontingenti var. Bütün bunları düşünəndə kifayət qədər böyük auditoriyanın başsız qaldığını görürük. Prezident cənab İlham Əliyevin sərəncamı ilə nazirlər, komitə rəhbərləri regionlarda görüşlər keçirirlər. Ancaq artıq 3 aya yaxındır ki, Təhsil Nazirliyi regionlarda bu görüşü həyata keçirmir və vətəndaşların regionlardakı şikayətləri dinlənilmir. Vətəndaşları qəbul edən nazir müavini də nazir postunu yerinə yetirir və nəticə olaraq onun öz postu da boş qalıb. Bundan başqa da Təhsil Nazirliyində bir çox şəxslər artıq Vergilər Nazirliyinə getdiyi üçün onların da yeri boşdur. Yəni təkcə nazir deyil, nazirlikdə bir sıra vəzifələr idarəçilik baxımından yerində deyil. Düşünürəm ki, bu hal həm dövlətlərarası bir neçə layihələrin həyata keçirilməsini ləngidir, həm də Azərbaycanda hansısa layihəni həyata keçirən xaricilərdə inamsızlıq yaranır. Düşünürəm ki, seçkilərdən sonra Təhsil Nazirliyi ləğv olunacaq və Elm-təhsil və İnnovasiya adlı qurum yaradılacaq. Bir neçə qurum da bunun tabeliyində birləşəcək. Məncə, təyinatın gecikməsinə də səbəb elə budur. İnsanların təhsilə olan inamı yox idi. Düşünürəm ki, boşluğun aradan qaldırılması üçün zaman lazım olacaq. Çünki yeni gələn şəxs təhsili öyrənəcək, təyinatlar həyata keçirəcək ki, bu da zaman alacaq".



**Kamran Əsədov:** "Seçkidən sonra Təhsil Nazirliyi ləğv olunacaq"



**Etibar Əliyev:** "Yeni qurumun yaradılması yaxın gələcəkdə mümkün olmayacaq"

**Digər təhsil eksperti Etibar Əliyev isə bildirib ki, təhsil nazirinin təyinatı prezident seçkisindən sonraya qaldı:**

"Təhsil Nazirliyində hələlik işlər qaydasında gedir. Ancaq təhsil sistemi elə bil ki, az tənqid olunur. Mikayıl Cabbarov vergilər naziri təyin olunduqdan sonra tənqidlər səngiyib. Nə baş verdi, 3 aya təhsilin problemləri həll olundu? Deyəsən, Mikayıl müəllimə qarşı tənqidlər idarə olunurdu. Hər halda, bu indi açıq şəkildə görünür. Bilirsiniz, cəmiyyətdə təhsil hansısa xoşagəlməz hallar baş verəndə insanların yadına düşməməlidir. Hadisə baş verməyəndə elə bil ki, hər şey öz məcrasında davam edir. Halbuki insanlar təhsillə yaşamalıdırlar. İndiki dövr daha çox nüfuzlu, ağıllı, qətiyyətli, dünyada gedən təhsil proseslərini anlamaq gücündə olan şəxsin nazir təyin olunmasını tələb edir. Bizim üstünlüyümüz ondadır ki, prezident İlham Əliyev təhsili mükəmməl bilən şəxsdir. Bu bizə onu söyləməyə əsas verir ki, sadaladığım keyfiyyətləri özündə birləşdirən şəxsin təyinatını arzu edə bilərik. Açığını deyim ki, Cabbarov təhsilin bütün pillələrində, xüsusilə orta və peşə təhsili pillələrində inqilabi islahatlara imza atdı. Yalançı professora və təhsil "bilicilərinin" təkamül nəzəriyyələrini alt-üst etdi... Bu islahatların davamı olmaldır. Mən təhsil nazirinin olmadığı bu kiçik vaxt kəsimini itirilmiş vaxt hesab etmirəm. Geriləmə hiss olunmur. Qısa vaxtda nəyinsə inkişafından danışmaq da yersiz çıxar. O ki qaldı yeni qurumun yaradılması məsələsinə, bu yaxın gələcəkdə mümkün olmayacaq. Azərbaycanda Elm və Təhsil Nazirliyi yaradılsa belə, Azərbaycan Milli Elmlər Akademiyası müstəqil qurum kimi qalacaq. AMEA ölkənin elm siyasətini həyata keçirən və dövlətə gərəkli bir qurumdur. İdman və Gənclər Nazirliyinin Təhsil Nazirliyinə birləşdirilməsi də absurddur. Əgər Təhsil və Elm Nazirliyi yaradılacaqsa, burda məqsəd ali məktəblərdəki elmi fəaliyyəti təhsillə çülğalaşdırmaqdan ibarət olacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018

# "Onların minnəti olsun ki, mənə dəstək verəcəklər"

## Sərdar Cəlaloğlu: "Müsavatçılar bir vəfa borcu olaraq nə üçün məni dəstəkləməməlidirlər?"

**Prezidentliyə namizədliyini irəli sürən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun müxalifətin vahid namizədi ola biləcəyi barədə yayılan xəbərlər siyasi çevrələrdə müzakirə mövzusudur.**

*S.Cəlaloğlu ilə seçki prosesin, müxalifətin vahid namizədi ola biləcəyi iddiası və digər məsələlərlə bağlı söhbət etdik.*

***- Sərdar bəy, imzatoplama kampaniyanız necə gedir?***

- İmzatoplama ilə bağlı qeyri-sağlam bir təfəkkür var. Əslində imzatoplamaq çətin bir şey deyil. 45 min imza toplamaq üçün 200 nəfər cəlb olunsa, kifayət edir. Açığı, biz seçkidə iştirak etmək istəmirdik. Müsavat iştirak edərdisə, onun namizədini dəstəkləməklə bağlı öz aramızda razılığa gəlmişdik. Müsavat üçün imzatoplama kampaniyasında iştirak etməklə bağlı qərarımızı vermişdik. Müxalifətin 12 partiyasının təmsil olunduğu Koordinasiya Mərkəzi də belə qərar vermişdi. Çox təəssüflər olsun ki, bunların heç biri olmadı. Hazırda bir sıra siyasi partiyalar var ki, imzatoplama kampaniyasında mənə dəstək verirlər. Çoxsaylı insanları imza yığmağa cəlb etmişik. İmza vərəqələrini alandan sonra tanımadığımız xeyli insan bizə müraciət edib, imza toplamaq istədiklərini bildirdilər. Həddindən artıq qəribə bir təşəbbüskarlıq müşahidə edirik. Düzü, bunları gözləmirdim. Vaxtilə üzvlərimiz olan və sonradan əlaqələrini zəifləndənlərin özləri bizimlə əlaqə saxladılar. İmza vərəqələrini bütünlüklə paylamışıq.

***- Doldurulub geri gətirilən varmı?***

- Var. Amma 70 vərəqi hələ geri almamışıq. Onların hamısına tapşırmışıq ki, ayın 8-nə qədər vərəqələri qaytarsınlar, bütün imzalar əlimizdə olsun. Taliyət Əliyev seçki qərargahının rəhbəri və MSK-da səlahiyyətli nümayəndəmizdir. Daha dəqiq məlumatları mətbuat ondan ala bilər. Əgər maneələr olmasa, bu mərhələni uğurla başa vuracağıq. Parlament seçkilərində imza toplamaq indikindən qat-qat çətindir. O seçkilərdə bir dairədən imza toplamalısan. Dairədə də yaşayanların yarıdan çoxu ya orada deyillər, ya da müvəqqəti yaşayanlardır. Amma prezident seçkilərində bütün ölkə üzrə istənilən yerdən imza yığa bilərsən. Məsələn, istənilən bir metro stansiyasının qarşısında durub, gün ərzində mindən çox imza yığmaq olar. Parlament seçkilərində bir də pasport qeydiyyatı tələb olunur. Hələ ki bizə heç bir maneə yaradılmır. Görünür, hökumət bizim seçkidə iştirakımızda maraqlıdır. Vaxtında imzaları yığıb təhvil verəcəyik.

***- Müxalifətin vahid namizədi olacağınızla bağlı yayılan xəbərlər də maraq doğurub. Doğrudur, Müsavat başda olmaqla, digər siyasi partiyalar daxilində gedən müzakirələrdə bunun əleyhinə olanlar çoxluq təşkil edirlər. Xüsusilə müsavatçılar sosial şəbəkələrdə açıq şəkildə buna qarşı çıxırlar. Necə düşünürsünüz, vahid namizəd ola biləcəksiniz? Bununla bağlı partiyalarla danışıqlar aparırsınız?***

- Müsavatın üzvlərini anlaya bilmirəm. Biz həmişə Müsavatı dəstəkləmişik. 2003-cü ildə bu partiyanın seçkilərinə görə 4 il yarım həbs cəzası aldım, işgəncələrə məruz qaldım. Evimi dağıdıblar, ailə üzvlərimə aid qızılları apardılar, övladlarımı incidiblər. Müsavat üçün bu qədər əziyyət çəkmişəm, halal xoşları olsun. Bunları üzə vurmaq üçün demirəm. Bu seçkilərdə də İsa Qəmbərə dedim ki, əgər namizəd olsanız, ADP sizi dəstəkləyəcək. 25 illik siyasi həyatımızda Müsavatı bu və ya digər formada dəstəkləmişik. Görəsən, bu müsavatçılar bir vəfa borcu olaraq nə üçün Sərdar Cəlaloğlunu dəstəkləyə bilməzlər? Nəyim bunlar üçün yetərli deyil ki, onlarda "Biz Sərdar Cəlaloğlunu dəstəkləyə bilmərik" kimi diskussiyalar başlayıb. Təvazökarlıqdan uzaq olsa da, mənə Əbdürrəhman Vəzirov, Əbülfəz Elçibəy, Heydər Əliyev vəzifələr təklif ediblər, imtina etmişəm. Mənim vəzifədə gözüm yoxdur. Guya prezident olanda Sərdar Cəlaloğlu olacam, olmayanda yox? Sadəcə olaraq, xalqımı sevirəm, istəyirəm xalqım böyüsün, inkişaf etsin. Bunun üçün prezident kimi də, sıravi vətəndaş kimi fəaliyyət göstərməyə hazıram və göstərirəm də. Mənim üçün prezident olmaq, yaxud kiminsə prezidentliyini dəstələmək kompleksi yoxdur. Bəzi şəxslər milli maraqlardan çıxış etmirlər. Məhz bu şəxslər üçün çətindir Sərdar Cəlaloğlunu dəstəkləmək.



**"Gərək Əbülfəz Elçibəy qədər ürəyin olsun, onun qədər milli təəssübkeş olasan, eyni zamanda onun kimi müxalifətin güclənməsində maraqlı olasan"**

***- Sizcə, səbəb nədir?***

- Guya mən sizləri dəstəkləyəndə alçaqlıq olur, siz məni alçaqlıq olmasın deyə dəstəkləmirsiniz? Açığı hələ ki namizdliyimin qeydə alınıb-alınmaması məlum olmadığından bu cür məsələləri düşünmürəm. Amma bir neçə partiya var, özləri mənə müraciət ediblər ki, əgər qeydə alınsanız sizi seçkilərdə dəstəkləyərik. Bu dəqiq olacaq. Eləcə də seçkidə iştirak edən dostum Əli Əliyev deyib ki, qeyri-qanuni və ya başqa şəkildə seçkidə iştirak edə bilməsəm, mənə maneələr yaradılsa, nəinki sizi dəstəkləyəcəm, hətta seçki ittifaqı yaradıb seçkilərə gedərik. Kimin ümumi müxalifət mövqeyində marağı varsa, müxalifətin güclənməsini istəyirsə, onlar üçün məni dəstəkləmək problemi yoxdur. Kimisə vahid namizəd kimi seçmək o demək deyil ki, bu şəxs hamıdan ağıllı, təcrübəlidir, üstündür. Allah Əbülfəz Elçibəyə rəhmət eləsin. Onun siyasi tərbiyəsi altında olan insanların bu cür düşünmələri ürəyimi ağrıdır. Yaxşı yadımdadır, 1998-ci ildə müxalifətin böyük birliyi olan SİDSUH seçkiləri boykot etmişdi. O zaman Etibar Məmmədov seçkilərə gedirdi. Elçibəy o zaman dedi ki, Etibar seçkiyə gedir deyə ona pis yanaşmamalıyıq, əksinə, həm onun mitinqlərinə, həm də seçki kampaniyasına dəstək verməliyik, özümüz də boykot siyasətimizi aparmalıyıq. Onu da dedi ki, dünya görməlidir ki, seçkidə iştirak edən müxalifət bu qədər səs toplayıb, hələ müxalifətin böyük bir hissəsi də seçkiləri boykot edib. Həmin seçkilərdə Etibar Məmmədov 35% səs topladı. O səslərin də böyük hissəsini bizlər təşkil etdik, mitinqlərinə, seçkisinə adamlar göndərdik ki, ona səs verin. Gərək Əbülfəz Elçibəy qədər ürəyin olsun, onun qədər milli təəssübkeş olasan, eyni zamanda, onun kimi müxalifətin güclənməsində maraqlı olasan. Bunlar olan zaman başqa bir müxalifət liderini dəstəkləmək ürəyin olur.

***- Seçki ərəfəsində müxalifət liderləri ilə görüşünüz olmuşdu, orada bu haqda danışmışdınızmı?***

- Seçkilərdən öncə Sabir Rüstəmxanlının yanında İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı, Pənah Hüseyn və digər liderlərin iştirakı ilə toplantı olmuşdu. O toplantıda müxalifətin bir araya gəlməsi, qarşıdan gələn seçkilərdə vahid namizədlə çıxış etməsi məsələsini qoydum. İlk olaraq, buna Əli Kərimli etiraz edib dedi ki, müxalifət çox bir araya gəlib, sonradan dağılıb. 11 aprelə seçkilər təyin olunan kimi İsa bəylə görüşdüm və dedim ki, seçkilərə gedin, sizi dəstəkləməyə hazıram. Hətta başqa partiyaları da bu prosesə qoşacağımıza Pənah bəylə birlikdə söz verdik. İsa bəy iştirakdan imtina etməyib, Müsavat bu qərarı verib. Bundan sonra müxalifətin Koordinasiya Mərkəzi toplandı və dedim ki, vahid qərar qəbul edək, yəni ya seçkilərdə vahid namizədlə iştirak edək, ya da vahid şəkildə boykot edək. KXCP, ALDP, VİP kimi qurumlar artıq qərar verdiklərini dedilər, İqbal Ağazadə isə partiyasının Məclisinin qərarına tabe olacağını dedi. Nəticədə bir mənzərə yarandı ki, müxalifət düşərgəsində vahid mövqedən çıxış etmək mühiti yoxdur. Biz bu seçkidə müxalifətin iştirakında maraqlı idik. Çünki Azərbaycanda müxalifətin mövcudluğunu dünyaya göstərmək, siyasi aktivliyi artırmaq istəyirik. Seçkilər də bunları etməyin ən ideal üsullarından biridir. Müxalifətin bu seçkilərdə olmaması onların özlərinin əleyhinədir. Seçkidə bir neçə namizəd varsa, o seçkilər qanuni sayılır. Bizim başqa cür hakimiyyəti dəyişmək yolumuz yoxdur. Qeyri-müəyyən durum yarandığını görüb, qərarımızı verdik. Gücümüz Müsavat və AXCP-nin birgə gücü qədər olmaya bilər, amma ADP-nin ölkədə kifayət qədər nüfuzu yüksəkdir. Sadəcə, son illərdə özümüz fəallıq göstərmirdik. Açığı deyim ki, 5-10 minlik mitinqi bu gün tək keçirə bilərəm. Mənim Milli Şura kimi 50 təşkilatın dəstəyinə ehtiyacım yoxdur. Mənə hörmət edən kifayət qədər bitərəf insanlar var. Nobel mükafatında ölkəmi təmsil edib, son mərhələyə qədər gedib çıxmışam. Bu baxımdan xalq partiyama niyə də səs verməməlidir? Bütün bunları nəzərə alıb seçkilərə getdik. Namizədliyim qeydə alınarsa, ilk növbədə Milli Şuraya, Müsavata müraciət edəcəm ki, namizədliyimi dəstəkləsinlər. Onlar namizədlə seçkilərdə iştirakdan imtina ediblər, ümumilikdə imtina etməyiblər. Qanuna görə, heç kəs vətəndaşı seçkilərdə iştirakdan yayındıra bilməz. Bu baxımdan onların üzvləri mütləq seçkilərdə iştirak edəcəklər. Həmin üzvlər də seçkilərə gedib hakimiyyətə səs verəsi deyillər, mənə səs verəcəklər. Etibar Məmmədov, Lalə Şövkət kimi siyasi liderlərə də müraciət edəcəm. Biz nümayiş etdirə bilərik ki, müxalifət mövcuddur, seçkilərdə mübarizə aparır. Məni dəstəkləyən partiyaların fikir və ideallarını seçkidə ifadə edəcəm. Dəstəkləməsələr, bundan sonrakı həyatın olduğunu düşünmək lazımdır. Müxalif lider olan bir dostum dedi ki, biz seçkiləri boykot etmişik. Ona dedim ki, əgər bir halda ki, mənə dəstək vermirsiniz, o zaman seçkilərdən sonra mənə bir blokda olmaq, birlikdə iştirak etmək təklifləriniz olarsa, cavabım sənin verdiyin cavab kimi olacaq. Bu seçki ilə həyat bitmir. Məni dəstəkləyən hər bir insana minnətdaram. Amma bəzi şəxslərin minnəti olsun ki, məni dəstəkləsinlər. Nədən bunların dəstəyinə layiq olmayım?! Müsavat seçkilərə getmədi, mən getdim, indi niyə də məni dəstəkləməməlidir?

### "5-10 minlik mitinqi bu gün tək keçirə bilərəm"

***- Seçkidə iştirakdan imtina edən Müsavat, Milli Şura və REAL birgə mitinqlər keçirməklə bağlı razılığa gəliblər. Namizəd kimi ola bilərmi ki, o mitinqlərdə iştirak edəsiniz?***

- Əgər o mitinqlər seçkiləri boykot etməklə bağlı olacaqsa, orada iştirakım məntiqli olmaz. Əgər mitinqlər seçkilərin demokratik keçirilməsi üçün olacaqsa, mən də seçkilərdə demokratik müxalifəti təmsil edən biri kimi həmin mitinqlərdə iştirak edəcəm, xalqı mənə səsverməyə çağıracam. Amma bir şeyi deyim ki, Müsavat və AXCP arasındakı ittifaqın uzunömürlü olması mümkün deyil. O vaxt mümkün olar ki, burada üçüncü tərəf də olsun. Baxsanız görərsiniz ki, bu iki partiyanın ittifaqı o zaman uzunömürlü olub ki, orada ADP olub. Bunların arasında 25-30 ildir daxili ziddiyyətlər var. Üçüncü qüvvə qoşulanda, bu ziddiyyət səngiyir. Bu baxımdan uzunömürlü ittifaq yaratmaq istəyirlərsə, hökmən bizi də o ittifaqa daxil etməlidirlər. Belə bir ittifaq da mümkündür. "Azadlıq" blokuna oxşar bir birlik yaratmağa hazırıq. REAL Müsavat-AXCP birliyinə heç zaman qoşulmaz. Əvvəla, onların elektoratı, keçdikləri yol, Azərbaycanın gələcəyi ilə bağlı baxışları bu iki partiya ilə üst-üstə düşmür. Mitinqlərə dəstək verə bilərlər. Baxmayaraq ki, İlqar Məmmədov həbsdədir, amma REAL seçkiləri boykot etmədi. AXCP isə boykot qərarı verib. Əgər Müsavat və AXCP birlikdə mitinq keçirib, mənə iştirak üçün müraciət etsələr, mən də qeydə alınmış namizəd olaramsa, böyük məmnuniyyətlə o mitinqlərdə iştirak edib, çıxış edərəm.

**❑ Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**



# Misir misalı

Zamin HACI
zaminhaci@gmail.com

**"Şübhəsizdi tüpürər surəti-izbarımıza,**
**Göstərən olsa bu surət ilə nəqqaşa bizi.**
**Üzü dönsün görüm o, ağuya dönmüş çörəyin**
**Yaxşı möhtac elədi q...ə, o...şa bizi".**
***(Əliağa Vahid)***

**ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekutaya 11 aprel prezident seçkimiz haqda sual veriblər, o isə Misirdə mayda keçiriləcək prezident seçkisindən danışıbdır. Sanki APİ filfakının tələbəsinə Ernest Heminqueyin yaradıcılığından sual verirsən, o isə Fikrət Qocadan danışır.**

Ancaq burada müxbirlərdə də böyük günah vardır. Hazırkı dünyada demokratik seçkilər haqda danışacaq axırıncı adamlar varsa onlar elə ABŞ səfirləridir. Xüsusən Azərbaycan kimi ölkələrdəki səfirlər. Yenə müqayisəli təhlil aparsaq, sanki Ədahim Niftəliyevə Lionel Messinin oynamağı haqda sual verirsən. Yaxud Naxçıvandakı "NAZ-Lifan" sexinin müdirindən xahiş edirsən "Toyota" firmasının keçən ilki iqtisadi göstəricilərindən danışsın. Nə bilim, Səyavuş Novruzova Babək Xürrəmi, Oqtay Əsədova İlon Mask, Zahid Oruca Luçano Pavarotti, Əflatun Amaşova Martin Lüter Kinq, Zamin Hacıya Elmar Hüseynov haqda suallar verirsən. (Dövlət proqramı, partiyanın göstərişləri, YAP 27-ci plenumunun qərarları vardır, hərdən özünütənqidlə məşğul olmalıyıq).

Ümumiyyətlə, Azərbaycanda seçkilər bütün dünyaya, həmçinin ABŞ-ın özünə örnəkdir. 2 il qabaq onlar prezident seçkisini elə təxminən bizdəki kimi keçirmişdilər. İndi isə guya bizə ağıl öyrədirlər. Yeməzlər. Gedin bu demokratiya, azadlıq haqda nağıllarınızı əfqanlara, ərəblərə danışın, hərçənd deyəsən, onlar da bu nağıllara bəs deyincə qulaq asıblar. Axırda isə göydən üç "Tomaqavk" düşübdür.

Yemək demişkən, məncə, Robert müəllim seçkilərdənsə Azərbaycan mətbəxi, hansı restoranda yaxşı piti verirlər, dana basdırması harda babat olur, təndir çörəyi dürməyi tut arağı ilə necə gedir - belə temalarda danışsa yaxşıdır. Çünki biz bu adamı Bakıya gələndən ancaq qonaqlıqlarda görmüşük. Əlli adamı tutsunlar, altmış adamı döysünlər - bir dəfə səfirliyin cınqırı çıxmayıbdır. Haqlı olaraq çıxmayıbdır! Yuxarıda yazdığım kimi, adama deyərlər, sən kimsən, sənin inəyin niyə "möööö" eləyir?

Ümumiyyətlə, bu yankilərin zaman keçdikcə tam gerizəkalı olmasından şübhələnməyə başlayıram. Sanki "Mızdonalds"ın yağlı yeməklərindən beyinləri də piylənibdir. Misal üçün, başqa ölkələrdə rüşvət, korrupsiya sayılan şeylərə bunlar "lobbiçilik" adı verib qanuna salıblar. Fərqi nədir ki? İstənilən axmaq konqresmenlərə, senatorlara pul buraxıb kefi istəyən qanunu qabağa itələyir. "Erməni lobbisi? Buyur, keç yuxarı başa". "Silah lobbisi? Əlbəttə, nə satmaq istəsəniz, buyurun". Bu silah lobbisi əhvalatı lap idiotizmdir. Hər ay hansısa zırrama tüfəng götürüb xalqın balalarını məktəblərdə qırır, silah satışının sərbəstliyi qanununu isə ləğv edə bilmirlər. Keçən ay Floridada uşaqları ölən valideynlər yığışıb prezidentə şikayətə getmişdilər, Tramp məsləhət verdi: "Müəllimləri silahlandırmalıyıq". Eynilə bizdə o "ağsaqqal" haqda anekdotların qəhrəmanı kimi. "Filankəs ot tayasının üstündə qalıb, nə edək?" "İpi belinə bağlayın, dartın". "Ağsaqqal, sən deyən kimi elədik, düşdü öldü". "Hmm. Qəribədir. Bu üsulla quyudan xeyli adam çıxartmışam". Müəllimlər silahlanandan sonra Amerika məktəbləri tamamən Orta Doğunu xatırladacaqdır. Müəllimlər şagirdlərlə, direktor müəllimlərlə atışacaqdır. Di gəl, bunu orda izah eləmək çətindir. Anlamırlar ki, müəllimin, pedaqoqun bircə silahı vardır, o da seçki bülletenidir! Uzaqbaşı protokoldur.

Bir erməni diversantını sərhəddə tutmuşduq, türmədə Azərbaycan dilini təmiz öyrənibdir. Hətta bir çox məmurlarımızdan yaxşı danışır. *(Bəlkə cəzasını çəkib qurtaranda baş nazir qoyaq?)* Azərbaycan bayrağını düzəldib kamerasına taxıbdır. Patriot olub gedibdir. Bu da dünyaya Azərbaycan örnəyinin daha birisidir. Bəziləri isə bizə ağıl öyrətməyə çalışır. Misirdən misal çəkməyə qalsa, biz də çəkərik. Misir müəllim təhsil naziri olan vaxtlar idi...

# MDB paytaxtlarına şimaldan hədə kimi ismarış

**ABŞ və Rusiya arasında yeni "soyuq savaş" mehləri getdikcə güclənir. Artıq tərəflər arasında informasiya müharibəsi də miqyasını genişləndirməkdədir. Suriyada öldürülən "Vaqner"çilər - muzdlu rus hərbçiləri mövzusu ətrafında yaşanan təbliğat və antitəbliğat savaşı, habelə Moskvanın bu müdhiş faktı hələ də gizlətməyə çalışması buna sübutdur. Putinin yaxın səlahiyyətli nümayəndəsi, politoloq Sergey Markov iddia edib ki, V.Putinin yenidən prezident seçilməsin əngəlləmək üçün Qərb Donbasda müharibəni qızışdıra bilər.**




# Moskvadan ikibaşlı mesaj - Bakı seçimə itələnir

## SSRİ-nin aqibətini yaşamaq istəməyən Putin Rusiyasının "Yaxın xaric"ə qəzəbi artır - Qriqori Karasinin çoxmənalı tövsiyəsinin ilginc pərdəarxası; ABŞ-ın Rusiya əleyhinə getdikcə sərtləşən sanksiyaları postsovet ölkələrini də seçimlə üzləşdirə bilər, çünki...

Müşahidələr göstərir ki, ABŞ-la getdikcə daha da kəskinləşən qarşıdurmadan ən çox Putin Rusiyası narahatlıq keçirir. Niyə? Ona görə ki, Moskva Amerikaya qarşı effektli və açıq rəqabət üçün iqtisadi, siyasi və hərbi qüdrətinin yetərli olmadığını bilir. Rusiya həmçinin ondan narahatdır ki, ABŞ Kremlin olan-qalan dost-müttəfiqlərini də əlindən almaq siyasəti aparır. Aşağıda gətirdiyimiz sitat buna bariz dəlil sayıla bilər.

"Rusiya və Qazaxıstan Mərkəzi Asiyada geosiyasi oyunların baş verməməsi üçün çox şey edə bilər". Bunu Rusiya xarici işlər naziri müavininin katibi Qriqori Karasin söyləyib (axar.az). "Bu cür oyunları biz postsovet məkanının digər hissələrində görürük. Mən artıq sizə Yaxın Şərq və Şimali Afrikadan danışmıram. Ekspertlər artıq qeyd edirlər ki, üçüncü ölkələr MDB-yə, Avrasiya İqtisadi Birliyinə, Şanxay Əməkdaşlıq Təşkilatına və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv dövlətlər arasında rəqabət və təhlükəli fikir ayrılıqları formalaşdırmağa cəhd edir. Bu istiqamətdə isə antirusiya sanksiyalarından istifadə edilir və Rusiya ilə əməkdaşlığa sadiq qalanlar təhdid edilir", - deyə o bildirib.

*****

"Üçüncü ölkələr" deyəndə Rusiya XİN yetkilisi sözsüz ki, ABŞ və onun anti-Rusiya mövqeyini müdafiə edən digər Qərb (Avropa) dövlətlərini nəzərdə tutur. "Yeni Müsavat" xatırladır ki, ötən ilin dekabrında ABŞ-ın açıqladığı yeni Milli Təhlükəsizlik Strategiyasında Rusiya üç ən təhlükəli ölkələrdən biri kimi göstərilib. Keçən aydan - yanvardan isə ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyaları işə düşüb. Bu azmış kimi, ABŞ-ın maliyyə naziri Stiven Mnuçin ötən həftə bəyan edib ki, qarşıdakı ay ərzində Kremlə qarşı sanksiyalar daha da sərtləşdiriləcək.

Söhbət həm silah satışı ilə bağlı xəbərdarlıqdan, həm də real maliyyə-iqtisadi sanksiyalardan və Moskvanı daha ciddi təlaşa salan qara "Kreml siyahısı"ndan gedir. Yeri gəlmişkən, Rusiya təkcə silah tədarükü sahəsində artıq 3 milyard dollar itirib. Çünki alıcı ölkələr rus silahları ilə bağlı tərəddüd eləməyə başlayıb və imzalanan bir sıra müqavilələr ləğv olunub.

Təbii ki, ən çox təlaş keçirən ölkələrdən biri və birincisi işğalçı Ermənistandır. Çünki İrəvan Moskvadan silahı ən ucuz, sırf daxil bazar qiymətinə və bir qayda olaraq, aşağı faizli kredit hesabına alır və başqa ölkələrdən nəinki bu qiymətə, ümumiyyətlə, hər hansı qiymətə silah-sursat əldə etməyə Ermənistanın maliyyə imkanı yetərli deyil.

Üçüncü yandan, bəllidir ki, Sərkisyan rejimi Qarabağ məsələsinə görə neçə vaxtdır təhlükəli "iki stul"da oturmaq siyasəti yürüdür. Yəni özünü Rusiya ilə yanaşı, Qərbin - ABŞ və Avropanın da dostu kimi göstərməyə çalışır, Qərbə reveranslar edir, tez-tez NATO təlimlərinə qatılır. Kəskinləşən ABŞ-Rusiya münasibətləri, yeni "soyuq müharibə" ruzigarları və Amerikanın yeni sanksiyaları isə belə "ikili oyunu" faktiki, mümkünsüz edir. Əks təqdirdə, İrəvan Kremlin qəzəbinə tuş gələ bilər.

Əslində Karasinin yuxarıdakı açıqlaması da öncəliklə Ermənistan kimi "əl dövlətlərə" mesajdır ki, Amerika siyasətinin yedəyində getməyi ağıldan belə keçirməsin, Qərbə reverans eləməyi unutsun. Moskvanın ən sərt şəkildə və asanca cəzalandıra biləcəyi ölkə isə məhz Ermənistandır. Təzyiq üsulu kimi Qarabağ rıçaqı elə kifayətdir.

*****

Sözsüz ki, həmin açıqlamada Bakıya ünvanlı da incə, eyni zamanda təhdid xarakterli çatdırış var. O anlamda ki, Azərbaycan da Avrasiya layihələri ilə bağlı *(Avrasiya İqtisadi Birliyi, Gömrük İttifaqı, KTMT)* öz seçimini sürətləndirsin. Lakin Bakının haqlı şərti və tələbi var - öncə Qarabağ, torpaqlar. Azərbaycan heç nə baş verməmiş kimi, həmin birliklərdə işğalçı ilə birgə təmsil olunmayacağını dəfələrlə, açıq şəkildə bəyan edib.

İstənilən halda, ehtimal eləmək olar ki, Rusiyadakı prezident seçkilərindən sonra Moskvanın MDB paytaxtları, "Yaxın xaric"lə bağlı siyasəti daha konkret və sərt xarakter daşıyacaq. Yəni "Ya Rusiya, ya da..."

Bunu həm də Rusiya dövlətçiliyinə artan təhlükə diktə edir. Təsadüfi deyil ki, Qərbin güclənən sanksiyaları fonunda, SSRİ-nin aqibətini yaşamamaq üçün Putin Rusiya Federasiyası daxilində milli-muxtar qurumlarla bağlı da sərt kurs götürüb, bu qurumların xüsusən də Tatarıstanın səlahiyyətlərini azaltmağa çalışır. Kəsəsi, Moskva mərkəzdən qaçma proseslərini nəzarətə götürməyə girişib. Lakin bu siyasət bumeranq effekti də verə bilər. Çünki Rusiya SSRİ-nin azca sıxılmış forması sayılır.

**Ukraynalı tanınmış ekspert Vitali Portnikov da hesab edir ki, Putin rejimi və postsovet Rusiyası enində-sonunda dağılacaq. Politoloq bunu "Espreso" televiziyasına müsahibəsində söyləyib. Onun fikrincə, Ukrayna da Krımı yalnız Kremldəki hakim rejimin zəifləməsindən sonra geri qaytara biləcək.**

"Qərb sanksiyaları Kremli zəiflədir, amma bu proses çox zəif gedir. Sivil dünya aqressiya ilə razılaşmaq istəmir. Əgər hətta Qərbdəki rusiyayönlü lobbi sanksiyaların yumşaldılmasına cəhd etsə, Putin rejiminə qarşı təzyiqlər yoxa çıxmayacaq. Əslində bu sanksiyalar müəyyən qədər Kremlin əlinə də oynayır. Bunun hesabına hökumət elektoratın sayını artırır, güc strukturlarını zənginləşdirir, müdafiəyə ayrılan pullardan gəlir əldə etməyi bacarır. Uzunmüddətli gələcək isə aydındır. Qərb bir müddət sonra uğur əldə edəcək. Yəni Putin rejimi və hətta postsovet Rusiyası da dağılacaq".

Azərbaycana isə bu kimi proqnozları və prosesləri diqqətlə izləmək, adekvat və çevik reaksiya vermək qalır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018

**Dünya neft bazarında durumların dəyişəcəyi gözlənilir. Buna bazarın iki lideri olan Rusiya ilə Səudiyyə Ərəbistanı arasında yaranmaqda olan ittifaq səbəb ola bilər. Bu iki ölkə arasında yalnız neft sahəsində deyil, siyasi sahədə də əlaqələrin sürətlə genişlənməsi getdikcə daha çox diqqətləri cəlb etməkdədir. Dünya analitikləri, mətbu nəşrləri Rusiya-Səudiyyə birliyinin bilavasitə neft bazarındakı şist neft amilinə qarşı yönəldiyi qənaətindədirlər. Bu məsələyə həsr olunmuş analitik materiallarda da əsas vurğu məhz iki ölkənin ABŞ-ın neft bazarında söz sahibi olmasına qarşı fəaliyyətlərinə salınır.**

# Azərbaycan ABŞ-a qarşı neft ittifaqından qazanacaqmı...

## İlham Şaban: "Neftin qiymətinin düşməsi heç kimə sərf etmir"



Neft bazarındakı yeni düzən, yeni rəqabət Azərbaycan üçün nə vəd edir? Rusiya-Səudiyyə birliyinə digər ölkələrin, neft hasilatı yüksək olan İranın qoşulması mümkündürmü? Sualları "Yeni Müsavat"a cavablandıran **neft sahəsi üzrə ekspert, Neft Araşdırmaları Mərkəzinin sədri İlham Şaban** deyir ki, 2009-cu ildən sonra ABŞ-da şist neft hasilatı artmağa başlayıb: "2008-ci ildə ABŞ-da şist neft hasilatının maya dəyəri 189 dollar idi. 2015-ci ildə bu məbləğ 40-50 dollara düşüb. Bu gün isə elə yataqlar var ki, maya dəyəri 35 dollardır. Ona görə ki, kapital xərclərinin hamısı qarşılanıb, yalnız əməliyyat xərcləri qalıb. Neftin qiyməti 50 dolları ötən kimi ABŞ başlayıb neft hasilatını yüksək sürətlə artırmağa. 2017-ci il noyabrın yekunlarına görə, 70-ci ildən sonra gündəlik hasilat 10 milyon bareli keçib. Bu ilin sonunadək bu həcmin 10,3 milyon barelə çatdırılması nəzərdə tutulur".

**Ekspert deyir ki, 2014-2016-cı illərdə Səudiyyə neft bazarında istədiyinə xeyli dərəcədə nail olmağı bacarıb:** "Məqsəd ucuz neft qiymətləri ilə şist neft hasilatını gəlirsiz etmək və azalmasına nail olmaq idi. Həqiqətən də 2015-ci ildə, 2016-cı ilin sentyabr-oktyabrınadək Amerikada quyuların sayı getdikcə azalırdı. Başqa bir məsələyə də baxaq. Bu il başlayandan neftin orta qiyməti 65-70 dollar dəhlizindədir. Vahid Ələkbərovun dili ilə desək, bu qiymət bazar iştirakçıları üçün əlverişlidir. Lakin bəzi oyunçular hasilatı artırmağa can atırlar ki, bu da neftin qiymətinin ziqzaqvari hərəkətinə gətirib çıxaracaq ki, bu da oyunçular üçün ciddi çətinliklər yaradır. Vahid Ələkbərov Davosda bu barədə danışarkən bildirmişdi ki, belə qiymət dəyişmələri nə hasilatçılar üçün, nə də istehlakçılar üçün yaxşı nəsə vəd edir. Yəni heç kim gəliri-ni-xərcini planlaşdıra bilmir, çünki qiymətlər sürətlə dəyişir. Buna görə də Səudiyyə və Rusiya neftin indiki qiymətlərdə qalmasını təmin etməyə çalışırlar. Lakin Amerika durmadan hasilatı artırır".

**İ.Şaban bildirir ki, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu kimi qurumların 2018-ci il üzrə dünya ÜDM-dəki artımla bağlı gözləntiləri pozitivdir:** "Çində, Avropada, üçüncü dünya ölkələrində istehlak sürətlə artır. Nəqliyyat sektoru yüksək sürətlə inkişaf edir. Bu o deməkdir ki, dünyada enerjidaşıyıcılarına tələbat da artacaq. Yəni tələbatın 1-1,5 milyon barel artması gözlənilir. Bu şəraitdə ABŞ-ın 300 mini elə də böyük rəqəm deyil, əgər OPEK+ razılaşmasına əməl olunsa. Hətta razılaşmaya qoşulan ölkələrin bəzilərinin kvotanı aşması da təhlükəli sayılmır. Məsələn, Qazaxıstanın "Kaşaqan" yatağı istifadəyə verilib, bu ölkə 2018-ci ildə hasilatı 10 milyon barel artırmağı planlaşdırır".

**Ekspertin dediyinə görə, ötən il neftin qiymətinin artmasından Rusiyanın gəliri 47 milyard dollar, Səudiyyə Ərəbistanınınkı isə 30 milyard dollar artıb:** "İndiki qiymətlər bu iki ölkəyə o qədər sərf edir ki, onu aşağı salmaları real görünmür. Əlbəttə, hasilatı hərəyə 1 milyon barel artırmaqla qiyməti aşağı sala bilərlər. Amma bununla, əvvəla, öz hasilat xərclərini artırıb, gəlirlərini azaldacaqlar. ABŞ istehsalçıları isə çevik hərəkət etməyə alışıblar artıq. Qiymət düşən kimi quyuların ağzını bağlayıb bahalaşmanı gözləyəcəklər. Bu baxımdan, Rusiya və Səudiyyənin qiymətləri salmağa çalışacaqlarını real saymıram. Ən azı, kommersiya baxımından bu, çox uğursuz addım olar".

**İranın proseslərə təsirinə gəlincə, ekspert deyir ki, hələlik Cənub qonşumuz belə imkanlara malik deyil:** "Çünki İranın hasilatı artırmağa maddi imkanları - kapitalı yoxdur. Burada yalnız xarici şirkətlərlə işbirliyindən söhbət gedə bilər. Hansı ki, İranın 2015-ci ilin noyabrında xarici şirkətlər üçün açıqladıqları şərtlər kifayət qədər ağırdır. Buna görə də İran son vaxtlar 30-dək şirkətlə danışıqlar apardığını elan etsə də, yalnız bir müqavilə imzalanıb - "Cənub Pars" qaz yatağı üzrə "Total" şirkəti ilə xidmət müqaviləsi".

**Azərbaycanın neft bazarındakı rəqabətdən qazanclı və zərərlə çıxması isə qiymətlərdən asılıdır:** "Aydın məsələdir ki, Azərbaycanın dünya neft bazarındakı proseslərə təsir imkanları heç vaxt olmayıb. Biz ancaq ki, neftin qiymətinin artması prosesindən qazanc əldə edirik. Necə ki, keçən il qiymətlərdəki 50 faizlik artım "Azəri-Çıraq-Günəşli" yatağından dövlətin əldə etdiyi gəliri 1,2 milyard dollar artırdı".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Geosiyasi koalisiya qurmaq üçün nə lazımdır?..



**Hüseynbala SƏLİMOV**

**İnsanlarımızın daim Azərbaycanın da daxil ola biləcəyi yeni-yeni geosiyasi koalisiyalar axtarışında olması başadüşüləndir - hamı çalışır ki, bu mütəhərrik və qeyri-stabil dünyada ölkə təhlükəsizliyi üçün əlavə təminatlar tapsın.**

Amma hər yeni geosiyasi format özünü şərtləndirən amillər tələb edir və burada bir çox faktorları nəzərə almaq lazım gəlir.

Təbii ki, ən tez qurulan və ilk ağla gələn regional formatlar olur. Xüsusən dünyanın güc mərkəzlərindən birilə qonşu olan ölkələrin belə regional arxitekturalardan birinə cəlb olunması daha ehtimallı olur və bu baxımdan Azərbaycanın yaşadığı problemlərdən biri də Rusiya ilə qonşu olması və daim onun çeşidli geosiyasi layihələrinə münasibət bildirmək zorunda qalmasıdır.

Ona görə "problem" deyirik ki, bir az qəribə olsa da, bu geosiyasi arxitektura Azərbaycan üçün cəlbedici olmaqdan daha çox təhdidedicidir və təsadüfi deyil, hələki ölkə nə onun hərbi, nə də geoiqtisadi strukturlarında təmsil olunmayıbdır və reallıq kimi daha çox Moskva ilə ikitərəfli münasibətlərə can atır, nəinki Kremlin çoxtərəfli konfiqurasiyalarına. Elə Azərbaycanı daim tarazlaşdırıcı alternativ geosiyasi formatlar axtarmağa sövq edən ən birinci səbəb də Rusiya ilə qonşuluğudur.

Əslində zaman özü Rusiyanın geosiyasi arxitekturasının alternativini ortaya qoymuşdu - bu, Avropa və onun təhlükəsizlik və iqtisadi strukturlarıdır və heç təsadüfi deyil, bir neçə keçmiş sovet respublikası dərhal həmin strukturlara inteqrasiya olundu. Daha üç ölkəsə - Ukrayna, Gürcüstan və Moldova isə bu istiqamətdə hələ səylər göstərməkdədir.

Azərbaycan bir qədər fərqli istiqamət götürdü, o, Rusiyanın geosiyasi iddialarına sayğısını Avropa ilə məsafə saxlamaqla nümayiş etdirmək yolunu tutdu - yəni, KTMT-nın və Avrasiya İttifaqının üzvü olmadıq, di gəl, Rusiyanın maraqlarını nəzərə alıb Avropadan da uzaq durduq...

Zaman bu siyasətin nə dərəcədə doğru olub-olmadığını göstərəcək, ən əsası isə budur ki, bizim Avropa siyasətimizin incəliklərinə tək geosiyasi məqamlar təsir etmədi, burada bir çox başqa məqamlar da oldu və həmin məqamlar haqqında vaxtaşırı yazmışıq.

İndi maraqlı vəziyyət yaranıb: Rusiyanın müxtəlif çeşidli geosiyasi və geoiqtisadi layihələrinə "hə" deyə bilmirik, çünki bundan dövlət olaraq itirə bilərik. Avropaya da yaxın getmirik ki, çünki buna görə Rusiyadan qorxuruq və həm də bir hakimiyyət olaraq itirəcəyimizdən ehtiyat edirik ki, bu, heç də bizim üçün digər amillərdən az önəm kəsb etmir...

Təbii ki, belə vəziyyətdə "alternativlər" axtarışı zərurəti yaranır. Nəzərlər islam dünyasına, Asiyaya yönəlir. Amma burada bir neçə ciddi nüans var.

Əvvəldə dedik ki, hər geosiyasi format çoxfaktorlu prosesdir. Bunun üçün bir neçə vacib şərt lazımdır.

Birincisi, həqiqətən də ciddi ortaq maraqlar olmalıdır. İkincisi, yeni formatın nə az, nə çox, geosiyasi və geoiqtisadi məntiqi olmalıdır - hər ölkə çox aydın şəkildə təsəvvür etməlidir ki, niyə digər formatı, digər ölkələri yox, məhz bu formatı seçir? Üçüncüsü, bunun üçün zəruri resurslar, ən birincisi də hərbi, iqtisadi-texnoloji faktorlar, təbii resurslar və hətta demoqrafik amillər təmin olunmalıdır.

Bəlkə bundan əlavə də hansısa başqa amillər sadalamaq mümkündür, amma hələ siyasi gücün əsas şərtləri kimi hərb, təbii resurs, texnologiya və inkişaf etmiş iqtisadiyyat və bir də demoqrafiq göstəricilər götürülür. İslam dünyasında sadalanan bu amillərdən yalnız təbii resurslar və bir də demoqrafik göstəricilər var.

Amma neft və qaz məsələsi elədir ki, bunların cəmi 70-100 illik ehtiyatlarının qaldığı bildirilir. Demoqrafiya isə biz bəzi nəhənglərlə rəqabəti heç ağlımıza gətirə bilmərik.

Sözsüz, bir az da geniş formatı, məsələn, Asiyanı götürmək olar. Amma gəlin unutmayaq ki, buranın özündə mürəkkəb proseslər gedir.

Artıq bir neçə il bundan əvvəl Yaponiyanın baş naziri Sindzo Abe "dördtərəfli alyans" ideyasını irəli sürüb: Asiyada mükəmməl demokratiyanın daşıyıcı olan Yaponiya, böyük demoqrafik göstəriciləri olan Hindistan və böyük ərazisi olan Avstraliya birləşir. Özü də tək üçü birləşmir, bura ABŞ-ı da cəlb edirlər!..

Göründüyü kimi, məqsəd son vaxtlarda həm də geosiyasi iddiaları yaranan Çinə qarşı dayanmaqdır. Amma sizə bir sirr açım: Çin heç vaxt ciddi geosiyasi "aktor" olmayacaq, çünki tarix boyu belə olub, daim təcavüzə meylli qonşularından fərqli olaraq o, öz səddi hüdudlarında qalmağa meyl edib.

Sadəcə, artıq avtoritar Çin də (Si Tszinpin də ömürlük prezident olmaq istəyir!) qonşularını ehtiyatlandırır - demək, Asiya özü də demokratiyanın fərqində olanlara və olmayanlara ayrılır...

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018

**Bir neçə gün öncə "Yeni Müsavat"ın elektron poçtuna Sumqayıt sakinlərindən şikayət daxil olmuşdu. Şikayətdə Sumqayıt şəhərində, Səməd Vurğun küçəsi ilə Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsində böyük bir yaşıllıq zolağının məhv edildiyi bildirilirdi. Musavat.com dərhal məlumatı xəbərə çevirib, ictimailəşdirdi.**

# "Qaçqınkom" sədri Əli Həsənovun nəvəsinin məhv etdiyi yaşıllıq ərazidən reportaj

## Sakinlər etiraz edir: "Heydər Əliyevin saldırdığı yaşıllıqları bəzi məmurlar məhv edib, yerində obyekt tikirlər"



Əli Həsənov

Dünən "Yeni Müsavat" qəzetinin müxbiri məsələni araşdırmaq üçün Sumqayıta gedib, həmin ünvana baş çəkib.

Qeyd edək ki, "yaşıl terror" beşinci mikrorayonda, köhnə Sumqayıt parkının ərazisində baş verib.

Ərazidə olduğumuz zaman müşahidə etdik ki, təqribən 50 sota yaxın ərazidə 100-ə yaxın şam ağacı məhv edilib. Yaşıllıq ərazi 24/138 və 24/139 saylı binaların yaxınlığında yerləşdiyi üçün, hadisə sakinlərin gözü önündə baş verib.

**Adıçəkilən binaların sakinləri ilə görüşüb, onların fikirlərini də işıqlandırmağa çalışdıq:** "Biz uşaqlıqdan bu parkın ərazisində yaşayırıq. Sovet dövründə atalarımızın, babalarımızın bu ağacların əkilməsində zəhməti böyük olub. Sumqayıt günü-gündən abadlaşır, gözəlləşir. Ancaq bəzi insanlar şəxsi məqsədləri üçün yaşıllıqları məhv edib, 100-dən çox ağacı kökündən kəsiblər. Kəsdiklərini kəsiblər, kəsə bilmədiklərinin üzərini torpaqla basdırıblar. Bəzilərinin izlərini belə tapmaq mümkün deyil. Qanunsuz əməllərini beləcə ört-basdır edirlər".

Həmin ətrafda yaşayan bir neçə sakinlə birgə yaşıllıq olan ərazidə qısa müşahidə apardıq. Ağacların bir çoxu kökündən çıxarılıb, çıxara bilmədikləri isə kəsilib, kötüyü torpaqla örtülüb. O da aydın oldu ki, icra başçısının göstərişi ilə məhv edilən çoxillik ağacların yerində tinglər əkilib. Dəqiqləşdirmək üçün sakinlər əkilən yeni tingləri saydı. 75 tingin əkildiyini, təqribən 30-a yaxın isə torpaq altında gizlədilmiş çala yerlərinin olduğunu aşkarladıq.

Adının çəkilməsini istəməyən sakin Sumqayıt şəhər rəhbərliyinin məsələni şəxsən nəzarətə götürdüyünü bildirdi: "Təqribən 3-4 gün öncə buraya xeyli sayda rəsmi şəxslər gəldi. Sonradan məlum oldu ki, ağacların kəsilməsinin səbəbini araşdırmaq üçün şəhər rəhbərliyi, Sumqayıt şəhər prokuroru əraziyə gəlib".

**Sakinlər bildirir ki, mərhum prezident Heydər Əliyevin vaxtilə saldırdığı yaşıllıq zolaqlar onun çörək verdiyi, vəzifəyə təyin etdiyi məmurların ərköyün övladlarının tamahının qurbanına çevrilib:** "Belə çıxır, Ulu Öndərin əkdirdiyi ağacları, ondan yadigar qalan yaşıllıqları Əli Həsənovun ərköyün nəvəsi məhv edib, yerində obyekt tikdirir. 6-7 ay öncə Əli Həsənovun başqa bir nəvəsi avtoqəza edib neçə adamın həyatına son qoydu. Biz gözləməzdik ki, bu cür qalmaqaldan sonra bu ailənin bəzi üzvləri yenidən belə əmələ yol verərlər. Vallah mat qalırıq bu cür məmurların rəftarına. Prezidentdən nümunə götürsünlər. İlham Əliyev dəfələrlə məmurlara xəbərdarlıq edib, onlara təpinib ki, özlərini xalqın xidmətçisi kimi aparsınlar, görünür, bəzi məmurlar bundan nəticə çıxarmaq əvəzinə, daha betər işlərlə məşğuldular".













Bu mövzu ilə bağlı ötən saylarda da yazmışdıq ki, Sumqayıtda yaşıl soyqırım törədən şəxs Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, baş nazirin müavini Əli Həsənovun nəvəsi Emil Həsənlidir. Bunu şəhər sakinləri də "Yeni Müsavat"a bildiriblər: "Bu onun ilk əməli deyil. Sumqayıtda bir neçə yerdə restoran və hotelləri olduğunu eşitmişik. Çox güman ki, babasına və vəzifədə çalışan atasına güvənərək buranı zəbt edib, obyekt tikmək niyyəti var. İnanırıq ki, bu özbaşınalığı edənlər məsuliyyətə cəlb ediləcək".

Xatırladaq ki, Ə.Həsənovun qardaşı İlyas Həsənov Sumqayıt Yaşıllaşdırma İdarəsinin rəisidir. Deyilənə görə, E.Həsənlinin atası hüquq-mühafizə orqanlarında yüksək vəzifə tutur.

"Yeni Müsavat"a daxil olan məlumata görə, artıq faktla bağlı hüquq-mühafizə orqanları araşdırmalara başlayıb.

Yazıda adları çəkilən şəxslərin mövqeyini dinləməyə, dərc etməyə hazırıq.

❑ **M.SALMANLI, Musavat.com**

# Avropa və Amerika Türkiyəyə təzyiqləri artırır - Afrinə görə

## AB ali təmsilçisi Türkiyə, Rusiya və İrana məktub göndərdi




**"Suriyada qüvvəyə minən BMT TŞ-nin atəşkəs qərarı Afrinə də şamil olunmalıdır". Bu açıqlamanı ABŞ Dövlət Departamentinin sözçüsü verib. Sözçü bildirib ki, atəşkəs bütün Suriya ərazisini əhatə edir, Türkiyənin BMT-də qəbul olunan layihəni yaxşı oxuması lazımdır.**

Onun sözlərindən belə məlum olub ki, Suriyada 30 günlük atəşkəs qərarı İŞİD, "Əl-Qaidə", "Ən-Nusra" kimi terror təşkilatları istisna olmaqla, ölkənin bütün ərazilərində, bütün silahlı qruplar arasında qüvvədə olmalıdır. O cümlədən Türkiyənin hazırda hərbi əməliyyatlar apardığı Afrin rayonu.

BMT TŞ-nin qərarına əsasən Suriya ərazisində atəşkəs qüvvəyə minib. Ancaq Türkiyə dövləti hərbi əməliyyatları Afrində kürd silahlılarına qarşı əməliyyatlar davam edir. Ankara bəyan edib ki, YPG PKK-nın qanadı olduğu üçün atəşkəs qərarının Afrinə tətbiq olunması mümkün deyil.

Bu həftənin əvvəlində Avropa Birliyi xarici siyasət və təhlükəsizlik üzrə ali təmsilçisi Federika Moqerini də Türkiyəni Afrin əməliyyatını dayandırmağa çağırıb. Bundan başqa, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışan Fransa prezidenti Emmanuel Makron da Afrində atəşkəs elan olunmasına çağırıb.

**ABŞ Dövlət Departamenti sözçüsünün Afrində atəşkəs çağırışına Türkiyə XİN-dən cavab gecikməyib. XİN sözçüsü Hami Aksoy ABŞ Dövlət Departamenti sözçüsünün açıqlamasının "hər cür əsasdan məhrum" adlandırıb. Türkiyə XİN sözçüsü deyib ki, BMT-nin məluma atəşkəs qərarında humanitar vəziyyətin narahatlıq doğurduğu bölgələr sırasında Afrinin adı çəkilmir.** "Vəziyyət belə olduğu halda ABŞ Dövlət Departamenti sözçüsünün sözügedən BMT TŞ qərarını "Türkiyənin yaxşı oxuması" lazımdır kimi açıqlamalarının heç bir əsası yoxdur. Ya qərarın mərkəz nöqtəsini anlaya bilmədiyi, ya da diqqəti yayındırmağa çalışdığını göstərir".

ABŞ Dövlət Departamenti rəsmisinin açıqlaması AB və Fransadan sonra Türkiyəyə qarşı növbəti təzyiq hesab etmək olar. Görünən odur ki, Qərb ölkələri Türkiyəyə Afrində atəşkəs elan etməsi üçün təzyiqləri günü-gündən artırır. Məlum olub ki, fevralın 26-da AB xarici siyasət və təhlükəsizlik üzrə ali təmsilçisi Federika Moqerini Astana prosesinin təminatçısı olan Rusiya, Türkiyə və İran xarici işlər nazirlərinə məktub göndərib. Məktubda AB ali təmsilçisi təminatçı ölkələrə müraciət edərək Şərqi Quta ilə yanaşı Suriyanın bütün ərazisində atəşkəsi həyata keçirməyə çağırıb. "Reuters" agentliyi məktubun surətini əldə edib. Məktubda Moqerini Rusiya, İran və Türkiyənin xarici işlər nazirlərindən Şərqi Qutada atəşkəsin təmin olunması və humanitar yardımın çatdırılmasını təmin edilməsini istəyib. Bundan başqa, 30 gün ərzində Suriyanın bütün ərazilərində həqiqi bir insani atəşkəsin təmin olunmasını istəyib. F.Moqerini Rusiya, Türkiyə və İranın Suriyanın bütün ərazilərində ən azı 30 gün boyunca savaşın tamamilə dayanması və həqiqi bir humanitar atəşkəsin təmin olunması çağırışı edib. Eyni zamanda ali təmsilçi təminatçı ölkələrin müharibənin dayanması, Suriya xalqının qorunması, humanitar yardımın çatdırılması və tibbi təxliyələrin, yaralıların çıxarılması üçün lazımi addımları atmasını istəyib.

Göründüyü kimi, artıq hər gün ABŞ və Avropadan Türkiyəyə atəşkəs çağırışlarının sayı artır. Türkiyənin isə hələlik mövqeyi birmənalıdır: terrorçulara qarşı atəş dayanmayacaq. Ancaq Ankaranın artan təzyiqlərə uzun müddət davam gətirəcəyi inandırıcı deyil.

❑ **Kənan RÖVŞƏNOĞLU "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İşğalçını sülhə gətirməyin dinc yolu - əzici hərbi və iqtisadi üstünlük

## Azərbaycanın "maksimalist mövqeyi" düşməni niyə təlaşa salıb; **rusiyalı politoloq erməni nəşrinə:** "Azərbaycan daha əvvəlki deyil, indi o, başqa çəki dərəcəsində olan dövlətdir..."

**2018-ci ilin ilk iki ayı artıq arxada qaldı. Hər itirilmiş ay isə əfsus ki, Qarabağ zonasında sülhü deyil, müharibəni yaxınlaşdırmaqdadır. Görünən həmçinin odur ki, artıq ATƏT-in Minsk Qrupu həmsədrlərinin diplomatik səyləri də tükənib. İllərdir onlardan heç bir yeni, konstruktiv ideya və təklif gəlmir.**




Bunu hamıdan yaxşı sözsüz ki, Azərbaycan görür. Deməli, çarəni də birinci özümüz tapmalı, konfliktin həllində dönuşü özümüz təmin eləməliyik. Yolu bəlli: güclənmək, güclənmək və güclənmək! İşğalçı Ermənistan üzərində bütün sahələr, ələlxüsus da hərbi göstəricilər üzrə əzici üstünlüyü təmin eləmək və onu qoruyub saxlamaq. Beləliklə də münaqişənin həllində hamının hesablaşdığı, güclü söz sahibi olan dövlətə çevrilmək...

*****

"Azərbaycan regionda ən döyüşkən və hərbi-texniki planda ən mükəmməl orduya malikdir. Azərbaycan hər il öz təhlükəsizliyinin təmin edilməsinə 3-4 milyard dollar xərcləyir. Dövlətimiz gücünü aprel müharibəsində də nümayiş etdirdi. Bizə mane olmasalar, bir həftəyə, maksimum bir aya bütün işğal olunmuş ərazilərimizi qaytara bilərik".

"Yeni Müsavat" xatırladır ki, bunu Azərbaycan prezidentinin köməkçisi Əli Həsənov Azərbaycanlıların Avropa Konqresinin qurultayındakı çıxışında bildirib. Onun sözlərinə görə, Azərbaycan militarist dövlət deyil, lakin gələcəkdə işğal altında olan torpaqlarını qaytarmaq məqsədilə müdafiə qabiliyyətini möhkəmləndirməyə məcburdur.

**Əli Həsənov onu da qeyd edib ki, Avropada Azərbaycana və azərbaycanlılara qarşı şaxələnmiş şəbəkəyə malik, Brüsseldə, Londonda, Parisdə mərkəzləri olan güclü erməni diasporu fəaliyyət göstərir.** "Onlar çox güclüdürlər, Avropa elitası ilə güclü və sıx əlaqələri var. Sözün əsl mənasında, bu qeyri-bərabər döyüşdür", - deyə prezidentin köməkçisi əlavə edib.

*****

Doğrudan da, erməni lobbisinin imkanları, xristian dünyasının, üç həmsədr dövlətin işğalçıya gizli-açıq havadarlığını, üstəlik, Rusiya kimi bir dövlətin cırtdan Ermənistana hərtərəfli dəstəyi və "atalıq qayğısı"nı ciddiyə alsaq, Azərbaycan həqiqətən öz ərazisinə soxulmuş təcavüzkarla qeyri-bərabər bir döyüş aparır.

Belə vəziyyətdə işğala məruz qalan dövlət olaraq, yeganə çıxış yolumuz əlbəttə ki, beynəlxalq hüquqdan möhkəm yapışmaqla, nəyin bahasına olur-olsun, öz iqtisadi-hərbi qüdrətimizi durmadan böyütmək, ölkənin beynəlxalq imicini və dostlarının sayını artırmaq, o sırada məxsusən qardaş Türkiyə, Pakistan, İsrail kimi dövlətlərlə əlaqələri daha da dərinləşdirmək, paralel surətdə erməni lobbisinin təbliğat maşınına zərbələr vurmaq və məsələni dünya güclərinin gündəminə gətirməkdir.

Əks halda, təcavüzkar tərəf öz havadarlarına, erməni diasporuna arxayın olaraq məsələdə maksimalist, destruktiv mövqeyini saxlamaqda davam edəcək, ədalətli sülh əlçatmaz olaraq qalacaq. İşğalçını dinc vasitələrlə sülhə vadar eləməyin tək yolu bu - bütün sahələr üzrə düşmən üzərində əzici iqtisadi-hərbi üstünlük! Əcnəbi ekspertlərdin də bu yöndə şərhləri maraq doğurur.

*****

"Hər iki münaqişə tərəfinin" (Azərbaycan və Ermənistan-red.) tələbləri praktik olaraq, bir-birini istisna edir. Bu da istənilən danışığı və kompromis imkanını qəlizləşdirir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri rusiyalı politoloq Stanislav Pritçin 1 in.am erməni nəşrinə müsahibəsində sülh və müharibə perspektivindən danışarkən deyib.

**Onun sözlərinə görə, konfliktin mürəkkəbliyi ondadır ki, Ermənistan indiki status-kvonun saxlanmasına çalışırsa, Azərbaycan, əksinə, bunda maraqlı deyil:** "Ona görə ki, Bakı təkcə Azərbaycan SSR-nin tərkibinə daxil olan Dağlıq Qarabağı yox, həm də ona bitişik rayonları itirib. Bu gün Dağlıq Qarabağ münaqişəsi aparıcı dünya dövlətləri üçün prioritet deyil. Deməli, xarici oyunçular bu münaqişəni birdəfəlik nizamlamaqdan ötrü öz hakimiyyətlərini, vəsaitlərini, resurslarını işə salmaqda maraqlı deyillər. Belə vəziyyətdə isə danışıqlar prosesini irəli aparmağa Azərbaycan üçün elə də çox imkanlar qalmır".

**Politoloqa görə, dəyişən vəziyyət, o cümlədən iqtisadi durum nəzərə alınarsa, mövcud situasiya Azərbaycanı qane eləmir.** "Çünki Azərbaycan artıq başqa çəki dərəcəsində olan dövlətdir. Azərbaycanda iqtisadi böhran yoxdur, neftin qiyməti sabitləşib. Bu üzdən Bakı sərt siyasi xətt götürüb *(prezident İlham Əliyevin İrəvan, Zəngəzur və Göyçə açıqlaması nəzərdə tutulur - red.)* və bununla beynəlxalq ictimaiyyətə siqnallar göndərir ki, indiki status-kvo onu qane eləmir. Bu, bir yandan azərbaycanlıların nizamlama prosesinə yeganə təsir mexanizmidirsə, başqa yandan, regional təhlükəsizlik baxımından təhlükəlidir. Məsələ ondadır ki, hər iki ölkədə seçkilər bitəndən, hakimiyyət üçün heç bir daxili risk qalmayandan sonra Qarabağ məsələsində daha sərt hərəkət eləmək imkanı olacaq. Müharibə riski şübhəsiz ki, var", - deyə rusiyalı ekspert xəbərdarlıq edib.

**Politoloqun fikrincə, hər iki tərəfin ritorikası, xüsusən də rəsmi səviyyədə olan ritorika hələ ki heç bir güzəşti mümkün eləmir:** "Əgər Azərbaycan və Ermənistan tərəfdən Qarabağla bağlı səslənən fikirlərə qulaq versək, aydın olar ki, bu iki mövqe arasında heç bir təmas nöqtəsi yoxdur. O səbəbdən mən deməzdim ki, yalnız Azərbaycan maksimalist tələb irəli sürür. Vaxtilə tərəflər Madrid prinsiplərini imzalamağa hazır idilər. Bu sənəd mahiyyət etibarilə əsas nizamlama mexanizmini müəyyən edir, əlaqələrin tədricən normallaşmasını, aralıq qərarları özündə ehtiva edir. Ancaq biz yenə münaqişə tərəflərinin kompromisə hazır olmadığını görürük".

*****

Azərbaycanın məsələdə maksimalist mövqe tutması haqda rusiyalı politoloqun fikri ilə razılaşmaq əlbəttə ki, qeyri-mümkündür. O səbəbə ki, Bakı sadəcə olaraq, beynəlxalq hüquqdan çıxış edərək öz ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasını istəyir və tələb edir. Və Azərbaycan heç vaxt özünün qanuni torpağını güzəştə getmək, öz ərazisində ikinci saxta erməni dövləti yaratmaq hesabına konfliktin həllinə razı olmayacaq. Bakının ermənilərə ən böyük güzəşti bəlli: Azərbaycan tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət. Kim indi bunu maksimalist mövqe hesab edirsə, öz işidir. Beynəlxalq hüquqa görə isə bu, elə kifayət qədər güzəştli mövqedir ki var. Başımızı işğalçının ayağı altına qoyası deyilik ki?..



## NATO Bakıda Azərbaycan hərbçilərinə təlim keçir

**Azərbaycan Müdafiə Nazirliyinin NATO ilə 2018-ci il üçün fərdi tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Bakıda Şimali Atlantika Alyansının Ramştayn Hərbi Hava Qüvvələri Komandanlığının mobil təlim qrupu tərəfindən seminar keçirilib.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, seminarda NATO nümayəndə heyəti tərəfindən iştirakçılara hava əməliyyatlarının aparılması, hava nəqliyyatı əməliyyatlarının planlaşdırılması və icrası, eləcə də müharibə zonasında axtarış-xilasetmə əməliyyatlarının keçirilməsi və digər mövzularda brifinqlər təqdim olunur.

Tədbirdə müxtəlif qoşun növlərindən olan hərbi qulluqçular iştirak edirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018

**Rusiyanın Vaşinqtondakı səfirliyinin binası qarşısındakı meydana mərhum müxalif siyasətçi Boris Nemtsovun adı verilib. Qərarı Vaşinqton Şəhər Şurası çıxarıb. Novator.az bildirir ki, fevralın 27-si Rusiya səfirliyinin binası qarşısında keçirilən açılış mərasiminə ABŞ Dövlət Departamentinin rəsmiləri, konqresmenlər, rus diasporunun nümayəndələri qatılıb.**

# ABŞ-dan Kremlə SSRİ xatırlatması

## Şahin Cəfərli: "Boris Nemtsovun adının ABŞ-da əbədiləşdirilməsi şübhəsiz ki, siyasi məna daşıyır"



Rusiya müxalifətinin liderlərindən olan, prezident Vladimir Putinə qarşı əsas müxalifət lideri kimi tanınan Boris Nemtsov 2015-ci il fevralın 28-nə keçən gecə Moskvada odlu silahla qətlə yetirilib.

Ötən il iyulun 13-də Moskva Dairə Hərbi Məhkəməsi qətldə təqsirli bilinən Zaur Dadayevə 20 il həbs cəzası kəsib. İstintaqın versiyasına görə, 2014-cü ilin sentyabr ayında Ruslan Muxudinov Beslan Şavanova, Zaur Dadayevə, Şədid və Anzor Qubaşevlərə, Temirlan Əsgərxanova və Həmzət Baxayevə Boris Nemtsovu öldürməyin müqabilində 15 milyon rubl təklif edib. 2015-ci il fevralın 27-si axşam Zaur Dadayev Boris Nemtsovu güllələyib.

Zaur Dadayev, Şədid və Anzor Qubaşevlər, Temirlan Əsgərxanov və Həmzət Baxayev aparılan xüsusi əməliyyatlar nəticəsində saxlanılıb, Beslan Şavanov Qroznı şəhərində ələ keçməmək üçün özünü qumbara ilə partladıb. Qətlin sifarişçisi və təşkilatçısı hesab olunan Ruslan Muxudinov isə beynəlxalq axtarışdadır.

Məhkəmə Anzor Qubaşevə 19 il, Şədid Qubaşevə 16 il, Temirlan Əsgərxanova 14 il, Həmzət Baxayevə 11 il iş verib.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Boris Nemtsovun adının ABŞ-da əbədiləşdirilməsi şübhəsiz siyasi məna daşıyır. Bu, hər şeydən əvvəl ABŞ-Rusiya münasibətlərinin hazırkı böhranlı durumundan irəli gəlir:** "Xatırlatmaq yerinə düşər ki, ABŞ "soyuq müharibə" dövründə-1984-cü ildə də bənzər addım ataraq Vaşinqtonda SSRİ səfirliyinin yerləşdiyi meydana sovet hökuməti tərəfindən təqib olunan məşhur dissident, akademik Andrey Saxarovun adını vermişdi. İndi tarix təkrarlanır. Boris Nemtsov da əslində dissident idi. O, 2014-cü ildə Krımın ilhaqından sonra Rusiyada hökm sürən patriotik-millətçi əhval-ruhiyyəyə, prezident Putinin reytinqinin rekord həddə çatmasına məhəl qoymadan bu siyasəti sərt tənqid etmə cəsarətini göstərmişdi. Nemtsov Moskvanın neoimperial iddialarına qarşı ardıcıl çıxışlar edən, Ukraynaya qarşı hərbi müdaxiləni qətiyyətlə qınayan qərbyönlü, liberal siyasi lider idi. Bu mövqeyi ilə o, istər postsovet məkanında, istərsə də Qərbdə böyük simpatiya toplamışdı. Nemtsovun öldürülməsi heç şübhəsiz ki, siyasi motivli cinayət idi. Qətlin Moskvanın tam mərkəzində, Kreml divarlarının önündə törədilməsi isə sifarişçilərin nə qədər özünə arxayın olduğunu və azğınlığını göstərirdi. Bu, Rusiya kimi böyük dövlət üçün qara ləkədir. Qətlin icraçıları cəzalandırılsa da, əsl sifarişçilər və əsl motiv aşkara çıxarılmadı. Təsadüfi deyil ki, qətl hadisəsi Qərbdə böyük üzüntüyə və neqativ reaksiyaya səbəb oldu, bir müddət sonra ABŞ siyasətçiləri və hüquq müdafiəçiləri mərhum siyasətçinin adının əbədiləşdirilməsi məsələsini qaldırdılar. İlk dəfə bu təklifi nüfuzlu respublikaçı senator Marko Rubio Senatda gündəmə gətirdi. Təklif Konqresdə dəstəkləndi və ən sonda Vaşinqton şəhər rəhbərliyi Konqresin tövsiyə qərarına uyğun olaraq Rusiya Federasiyası səfirliyinin binasının yerləşdiyi meydana Boris Nemtsovun adını verdi. Qətlin üçüncü ildönümündə, 2018-ci il fevralın 27-də həmin meydanda Nemtsovun adı yazılmış lövhənin asılması münasibətilə xüsusi mərasim keçirildi. Mərasimə M.Rubio başda olmaqla, Konqres üzvləri, Dövlət Departamentinin nümayəndələri, mərhumun ailə üzvləri və yaxın dostları qatıldı".

**Politoloq hesab edir ki, əslində tədbirə Rusiya səfirliyinin təmsilçiləri də qatılsaydı, bu ölkə tərəfindən atılmış ağıllı addım olardı. Çünki Nemtsov vaxtilə Rusiyada yüksək vəzifə tutmuş dövlət xadimidir:** "O, ölkəsində hər hansı cinayət təqibinə məruz qalmayıb, rəsmi səviyyədə vətənə xəyanətdə ittiham olunmayıb, korrupsiyada adı hallanmayıb. Yəni Nemtsov hər hansı bəd əməlin sahibi deyildi, sadəcə olaraq, hakim çevrələrdən fərqli siyasi mövqe ortaya qoyurdu. Rusiya rəhbərliyi onun qətli ilə hər hansı əlaqəsi olmadığını dəfələrlə bəyan edib, cinayətin icraçıları olduğu bildirilən şəxslər həbs olunaraq cəzalandırılıb. Lakin Rusiya hakimiyyətinin davranışları, Nemtsov məsələsinə çox qısqanclıqla yanaşması istər-istəməz şübhələrə əsas yaradır. Rusiyanın demokratik qüvvələri xeyli vaxtdır qətl hadisəsinin törədildiyi yerdə memorial lövhənin quraşdırılmasını, Nemtsovun adının vətəndə əbədiləşdirilməsini tələb etsələr də, ölkə rəhbərliyi buna isti yanaşmır. Təsəvvür edin ki, hadisədən yalnız 3 il sonra, ötən günlərdə Moskva meriyası Nemtsovun paytaxtda yaşadığı evin qarşısına xatirə lövhəsinin vurulmasına razılıq verib. Bundan öncə qeyri-rəsmi şəkildə quraşdırılmış lövhələr isə şovinistlər tərəfindən bir neçə dəfə dağıdılıb".

**Ş.Cəfərli əminliklə qeyd etdi ki, gün gələcək, Saxarovla bağlı olduğu kimi, Nemtsovun da adı öz vətənində əbədiləşdiriləcək və onun siyasi fəaliyyəti, fikirləri lazımi qiyməti alacaq.**

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Qərbin Suriya kürdlərinə dəstək və sevgisinin sirri

## Avropa Saleh Müslimi niyə vermədi?

**Xəbər verdiyimiz kimi, çərşənbə axşamı Praqa məhkəməsi Suriyada fəaliyyət göstərən kürd lider Saleh Müslimi "yetərli dəlil olmadığı" səbəbilə azad edib. Saleh Müslim fevralın 24-də Türkiyə dövlətinin tələbi ilə Çexiya İnterpol Təşkilatı tərəfindən saxlanılıb. Daha sonra Ankara Müslimin Türkiyəyə verilməsini istəyib. Ancaq işə baxan yerli məhkəmə irəli sürülən dəlilləri həbs və ekstradisiya üçün yetərli görməyib.**



Türkiyə hökuməti bəyan edib ki, PYD-nin keçmiş həmsədri, Suriya kürdləri arasında ciddi nüfuza malik Saleh Müslimin adı terror ittihamı ilə axtarışa verilənlər siyahısındadır. Türkiyə Daxili İşlər Nazirliyi Müslim haqqında axtarış elan edib və haqqında məlumat verəcək şəxslərə 4 milyon lirə mükafat təyin edib. Eyni zamanda Türkiyə məhkəməsinin Müslim barədə həbs qərarı var. Saleh Müslim saxlanıldıqdan sonra Türkiyə tərəfi axtarış sənədlərini də Çexiyaya göndərdiyini bəyan edib.

Qeyd edək ki, PYD-nin sabiq həmsədri Saleh Müslim 2016-cı il fevralın 17-də Türkiyə ordusu əməkdaşlarını daşıyan avtomobillərin keçdiyi yolda partlayışdan sonra başlanan istintaq çərçivəsində şübhəli hesab olunub və barəsində axtarış elan edilib.

1951-ci ildə Suriyanın Hələb şəhərində anadan olan Saleh Müslim milliyyətcə kürddür. Orta təhsilini Suriyada alıb, 1970-ci illərdə Türkiyəyə köçüb. 1977-ci ildə İstanbulda universiteti bitirən Müslim ixtisasca mühəndisdir. 1998-ci ildə siyasi fəaliyyətə qoşulmuş Saleh Müslim Suriya Kürdüstan Demokrat Partiyasına üzv olub. Daha sonra Müslim SKDP-nin həmsədri seçilib. Daha sonra PYD-də həmsədrlikdən gedən Müslim hazırda Suriya Demokratik Birlik Partiyasının lideridir. Saleh Müslimin oğlu Şirvan Müslim 2013-cü ildə Tel Abyad qəsəbəsində baş verən toqquşmalarda dünyasını dəyişib.

Suriyada kürdlər siyasi baxımdan təşkilatlanmış olsa da, məlum hərbi-siyasi hadisələr başlayana qədər kürd siyasi fəalları təzyiqlərə məruz qalıb. S.Müslim 2010-cu ildə hökumətin təzyiqləri səbəbindən İraqa qaçıb, yalnız 2011-ci ildə Suriyada məlum hadisələr başlayandan sonra geriyə dönüb.

Suriyada hadisələr başladıqdan dərhal sonra hazırlıqlı olan kürd qrupları tezliklə öz hərbi və siyasi təşkilatlarını qurdular. Hazırda kürdlərin ən güclü siyasi təşkilatı olan PYD 2003-cü ildə Saleh Müslimin liderliyində qurulub. Kürdcə Partiya Yekitiya Demokrat (Demokratik Birlik Partiyası - K.R.) sözlərinin baş hərflərini əks etdirən PYD və onun hərbi qanadı YPG - Yekineyen Parastina Gel - adlanır.

PKK-nin Suriya qolu da adlandırılan bu təşkilatlar 2011-ci ildən sonra Suriyanın şimalında möhkəmlənib və 2014-cü ildə İŞİD Suriyanın şimalını ələ keçirəndə ona qarşı müqavimət göstərən əsas hərbi qurum olub. 2012-2013-cü illərdə PYD və onun hərbi qanadı YPG Suriyanın şimalında aktiv hərbi-siyasi quruma çevrilib. 2013-cü ildə Saleh Müslim Avropaya səfər edib və yolüstü Ərbildən İstanbula, oradan da Ankaraya gedib. Burada ölkə rəsmiləri ilə görüşən Müslimlə sonradan da anlaşıldığı kimi danışıqlar uğurlu olmayıb. Sonrakı illərdə PYD İŞİD-ə qarşı mübarizədə ABŞ-ın regionda əsas hərbi müttəfiqinə çevrilib. 2014-cü il sahə əməliyyatlarında kürdlər ABŞ-ın quru qüvvələrini əvəz edib. 2015-ci ildən sonra isə müttəfiqlik dərinləşib və Suriya kürdləri digər etnik qrupları da içərisinə alan Suriya Demokratik Qüvvələri (SDQ) adlı koalisiya formalaşdırıb və Suriyanın şimalında faktiki olaraq kürd özünüidarəsi formalaşdırıb. 2017-ci ildə isə kürdlər ABŞ-ın köməyi ilə İŞİD-in Suriyadakı paytaxtı Raqqanı ələ keçirib və bununla da Suriyanın şimalında əsas hərbi-siyasi gücə çevrilib. Hazırda Suriya ərazisinin 25 faizdən çoxuna kürdlər nəzarət edir. Bu, hökumətdən sonra ən böyük güc mənasına gəlir.

Saleh Müslim hazırda da Suriya kürdlərinin əsas siyasi liderlərindən biri hesab olunur. Bu səbəbdən də Ankaranın onu Avropadan ala bilməzi mümkün görünmürdü. Ancaq bəzi türkiyəli analitiklər Afrin əməliyyatının dayandırılması qarşılığında Müslimin Ankaraya veriləbiləcəyini ehtimal edirdilər. Lakin göründüyü kimi, Avropa bu addıma getmədi. Məsələ ondadır ki, Çexiya məhkəməsinin bu qərarında iki mühüm amil rol oynayıb. Birincisi, hüquqi çatışmazlıqlardır. Məlum olub ki, Müslim haqda axtarış qərarı verilsə də, faktiki olaraq cinayət işi aparılmayıb və kürd liderin həbsinə səbəb ola biləcək ciddi istintaq dəlilləri yoxdur.

İkinci mühüm məsələ və təbii ki, məhkəmənin qərarına səbəb olan siyasi amildir. Qərb ölkələri hazırda Suriya kürdlərinə açıq şəkildə dəstək verir. Bunun bir səbəbi onların İŞİD kimi terror təşkilatlarına qarşı olmalarıdırsa, digər səbəbi isə dünyəvi siyasi qurum olmaları, daha əvvəl Suriya hakimiyyəti tərəfindən təzyiqə məruz qalmaları və sairdir. Bu səbəbdən də Avstraliyadan Kanadaya qədər bir çox ölkələr Suriya kürdlərinə silah, maddi və humanitar yardımlar edir. Hətta YPG-nin tərkibində ABŞ və Avropadan onlarla könüllü döyüşçülər var.

Ötən gün ABŞ-ın İŞİD əleyhinə hərbi koalisiyasının sözcüsü polkovnik Dillon YPG-nin İŞİD-ə qarşı savaşmasına tərif yağdırıb. Üstəlik, hazırda Türkiyə Afrində kürdlərə qarşı antiterror əməliyyatı aparır. Bələ bir vaxtda Avropanın kürd liderini Ankaraya təslim etməsi inandırıcı deyil. Necə ki olmadı. Əksinə, Qərb hazırda kürdlərin tərəf kimi qəbul olunması və Ankaranın Suriya siyasi həll prosesində kürdlərin də masa başında olmasına çalışır.

**❑ Kənan RÖVŞƏNOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018

# Ünvanlı sosial yardım və özünüməşğulluq proqramı - vəziyyət necədir...

## Elman Babayev: "80 minədək aztəminatlı ailə ünvanlı sosial yardımla təmin olunur, 1200-dən çox aztəminatı ailə öz kiçik ailə təsərrüfatlarını qurub"

**Məlum olduğu kimi, son illər dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması və manatın devalvasiyasından sonra ölkədə yaranan iqtisadi böhran yoxsulluq səviyyəsində yaşayan əhalinin sayının artmasına səbəb oldu. Vətəndaşların bir qismi iş yerlərini itirdi, bir qismi isə gəlirlərinin azalması ilə razılaşmalı oldu.**

Bundan əlavə, bahalaşma və inflyasiyanın artması mövcud gəlirlərin daha da dəyərsizləşməsi ilə nəticələndi. Beləliklə, ölkəmizdə ünvanlı sosial yardıma ehtiyacı olanları sayı daha da artdı. Bəs görəsən, hazırda yoxsulluq vəziyyətində vətəndaşların ünvanlı sosial yardıma çıxışı necə təşkil olunur? Hazırda neçə ailə sosial yardım alır? birdəfəlik sosial yardımın verilməsi və əmək qabiliyyətli əhalinin özünüməşğulluğunun təmin edilməsi hansı mexanizm üzrə həyata keçirilir?

"Yeni Müsavat"ın suallarını cavablandıran **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Babayev** bildirdi ki, hazırda özlərindən asılı olmayan səbəblərdən yoxsulluq vəziyyətində yaşayan ailələrin ünvanlı dövlət sosial yardımı proqramı ilə əhatə olunması prosesi davam etdirilir: "2016-cı ilin fevralından ünvanlı sosial yardım sistemi üzrə bütün prosedurlar elektron sistem üzərində, yeni Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi tərəfindən avtomatlaşdırılmış qaydada həyata keçirilir. Aztəminatlı ailələri təmsil edən vətəndaşlar sosial yardımın alınması üçün elektron qaydada müraciət edirlər və bu müraciətlərə avtomatlaşdırılmış sistem tərəfindən 20-dən çox qurumun informasiya ehtiyatlarına inteqrasiya şəraitində baxılaraq, yardım təyin olunub-olunmaması barədə qərar qəbul olunur. Beləliklə də sosial yardım təyinatları məmur müdaxiləsi, ümumən insan faktorunun iştirakı mümkün olmadan, tam şəffaf şəraitdə və ünvanlılıq prinsipinə uyğun olmaqla aparılır. 01 yanvar 2018-ci il tarixə olan məlumata əsasən, 80 minədək aztəminatlı ailə (326,6 min nəfər ailə üzvü) ünvanlı sosial yardımla təmin olunur".



**E. Babayevin sözlərinə görə, ünvanlı sosial yardımla yanaşı əhalinin gəlirlərinin artırılması üçün özünüməşğulluq proqramı çərçivəsində də müvafiq tədbirlər həyata keçirilir:** "Bununla yanaşı, aztəminatlı ailələrin sosial müdafiəsində passiv tədbirlərdən aktiv tədbirlərə keçidin təmin olunması, onların əmək potensiallarının reallaşdırılması yolu ilə gəlir imkanlarının artırılması, nəticədə sosial yardım sistemindən asılılığının aradan qaldırılması üçün Azərbaycan prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən özünüməşğulluq proqramı çərçivəsində tədbirlər getdikcə genişlənir. Proqrama özünüməşğulluq fəaliyyəti qurmaq üçün müvafiq potensialları, əmək qabiliyyətli üzvləri olan aztəminatlı ailələr cəlb edilərək, onlar hazırladıqları biznes-planlar əsasında kiçik ailə təsərrüfatlarını yaratmaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aktivlərlə, yəni lazımi mal və materiallarla təmin edilirlər. Ötən il verilmiş aktivlər hesabına artıq 1200-dən çox aztəminatı ailə öz kiçik ailə təsərrüfatlarını qurub, kiçik ailə biznesinə çıxış imkanı əldə edib. Aparılan müşahidələr onu deməyə əsas verir ki, aztəminatı ailələr dövlətin dəstəyi ilə yaradılmış təsərrüfatlarını daim inkişaf etdirir, genişləndirirlər. Bu isə onların gəlirlərinin tədricən artmasını, yoxsulluqdan sahibkarlığa çıxışını şərtləndirmiş olur".

**Nazirlik sözçüsü onu da vurğuladı ki, 2018-ci il ərzində isə ötənilki ilə müqayisədə dəfələrlə çox aztəminatlı ailənin özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatlarının qurulması üçün məqsədyönlü işlər aparılır:** "Bu və ya digər iqtisadi fəaliyyət sahəsində biznesi qurmaq və onu idarə etmək üçün zəruri bilik və bacarıqlara yiyələnmələri məqsədilə onlar üçün müvafiq təlim kurslarının təşkilinə də artıq başlanılıb. 1 aylıq kursları bitirdikdən sonra onların aktivlərlə təminatına başlanacaq.

Göründüyü kimi, hansı aztəminatlı ailələr ki, əmək potensialları, əmək qabiliyyətli üzvləri vardır, onlara aktivlər verilməklə və kiçik ailə təsərrüfatları yaradılmaqla gəlir imkanları artırılır. Nəticədə belə aztəminatlı ailələrin kiçik ailə təsərrüfatlarına malik olmaları hesabına onların sosial rifahında baş verən müsbət dəyişikliklər həmin ailələrin sosial yardım proqramından da çıxarılmasına səbəb olacaq. Lakin özlərindən asılı olmayan səbəblərdən yoxsulluq vəziyyətində yaşayan, əmək qabiliyyətli üzvləri olmayan ailələrin bu səbəbdən özünüməşğulluq tədbirlərinə cəlb olunmaq potensialları olmadığından həmin ailələrin sosial yardım sistemi vasitəsilə yoxsulluğun çətinliklərindən müdafiəsi davam etdiriləcək".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Bayramlar ayı olan martın fərqli iqtisadi çalarları

## Rəşad Həsənov: "Ənənəvi olaraq mart ayında bayram üçün istehsal olunan məhsulların, o cümlədən xidmətlərin qiymətləri artır"

**Təqvimdə başdan-başa bayramlarla əhatə olunan mart ayına qədəm qoyduq. Əvvəlcə, 8 mart Qadınlar bayramı, daha sonra 4 ilaxır çərşənbə, bunun ardından xalqımızın sevimli bayramı olan Novruz gəlir.**

Məlum məsələdir ki, əhalinin xərcləmələri bu ayda artacaq. Hər kəs son qəpiyini xərcləməli olsa belə, bayramı Novruza özəl bəzədilmiş süfrə ilə, bol ruzi ilə qarşılamağa çalışır ki, bütün ili bolluq içində olsun. Bu ayda tələbatın artmasına uyğun olaraq bayram məhsullarının da qiyməti artır. Heç kimə sirr deyil ki, həmin qiymətlər bayramdan sonra da enmir. Bəs görəsən, iqtisadçı ekspertlər mart ayını necə dəyərləndirir? Qiymətlər, manatın məzənnəsi və digər məsələlərlə bağlı proqnozlar necədir?



"Yeni Müsavat"ın suallarını cavablandıran **iqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, mart ayında əhalinin xərcləmələri artır, ancaq bu heç də alıcılıq qabiliyyətinin artması anlamına gəlməməlidir: "Bu, Azərbaycan üçün xarakterik situasiyadır. Ardıcıl olaraq bayramların olması, xüsusilə də Novruz kimi önəmli bir bayramın mart ayına təsadüf etməsi nəticəsində əhali məcburi xərcləmələr edir. Hər bir ailə başçısı çalışır ki, öz evində müəyyən qədər bayram əhval-ruhiyyəsini yaşada bilsin. Bu xərcləmələr də qiymətlərə öz təsirini göstərəcək. Ənənəvi olaraq mart ayında bayram üçün istehsal olunan məhsulların, o cümlədən xidmətlərin qiymətləri artır. Bu ən çox ərzaq sektorunda və əyləncə sahəsində təşkil olunan xidmətlər sektorunda hiss olunacaq. Bu isə faktiki olaraq əhalinin maliyyə vəziyyətinə neqativ təsir göstərəcək. Ümumiyyətlə, inflyasiya üzərində təzyiqləri daha da artıracaq".

**İqtisadçının sözlərinə görə, qiymətlərin artması istiqamətində trendi qabaqlamaq üçün müəyyən qədər öncədən alış-veriş zərərləri kompensasiya edə bilərlər:** "Spesifik olaraq bayram üçün istehsal olunan və artıq indidən istehlak olunan məhsulların qiymətində bayramdan sonra yenidən ucuzlaşma baş versə də, ərzaq məhsullarında qiymətlərin geri dönüşü müşahidə olunmayacaq. Ölkədə turizm sektorunda müəyyən aktivlik hiss olunacaq. Xüsusilə də son iki ildə bu istiqamətdə ərəb ölkələrindən, o cümlədən İrandan, Türkiyədən Azərbaycana axın daha çox müşahidə olunur. Bu isə ölkəyə valyuta axınını müəyyən qədər gücləndirməklə mart ayı ərzində yaranmış tələbin qarşısını almağa kifayət edəcək. Bu xərclərin artması və xaricə turist axınının artması səbəbindən manat üzərində formalaşan təzyiqləri neytrallaşdıracaq. Bu istiqamətdə risk gözlənilmir".

İqtisadçı onu da vurğuladı ki, neftin qiyməti ilə bağlı dünya bazarında bu ay hər hansı ciddi dəyişiklik gözlənilmir: "Hazırda neft bazarlarda öz qiymətini tapmaq üçün mübarizə aparır. Bu gün neftin qiyməti təxminən 55-60 dollar ətrafındadır. Mart ayında bu intervalda hər hansı ciddi dəyişiklik baş verməyəcək. Bizim proqnozlarımız bu ay neftin orta aylıq qiymətinin 65 dollar olacağı istiqamətindədir. Nəzərə alsaq ki, bu dövlət büdcəsində nəzərdə tutulandan 30 faiz artıqdır, mart ayı neftin qiyməti baxımından Azərbaycan üçün uğurlu hesab edilə bilər. Bu həm ölkədə xarici ticarət saldosunun artmasına, eyni zamanda ödəmələr balansında profisitin yaranmasına səbəb olmaqla manat üzərində hər hansı neqativ təsirin olmamasını şərtləndirəcək. Neqativ amillər bu gün də ola bilər, lakin bunun qarşısı müxtəlif üsullarla alınır və məzənnədə sabitlik təmin olunur. Bu təzyiqlər davam etsə, qarşısı əvvəlki kimi alınacaq".

**❑ Nərgiz LİFTİYEVA "Yeni Müsavat"**





# "Dövlət qulluğunun müsahibə mərhələsinə qeyri-ciddi yanaşılır" - Məleykə Abbaszadə

**"Dövlət qulluğuna qəbulla bağlı test imtahanından sonra təşkil edilən müsahibələrlə bağlı qanunvericiliyə bəzi dəyişikliklər ediləcək". Bunu APA-ya Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.**

Dövlət qulluğuna işə qəbulla bağlı test imtahanında iştirak edərək sertifikat əldə edən hər bir şəxsin 5 il ərzində müsahibələrdə iştirak edə biləcəyini xatırladan DİM sədrinin sözlərinə görə, mərkəzin saytında dövlət qulluğuna işə qəbul imtahanı ilə bağlı cədvəllər yerləşdirilib: "Həmin cədvələ baxan şəxs rahatlıqla görə bilər ki, neçə namizəd müsahibə üçün qeydiyyatdan keçib, onlardan neçəsi müsahibədə iştirak etməyib. İnsanlar müsahibəyə yazılır və biz bununla əlaqədar hazırlıq işləri görürük. Dövlət İmtahan Mərkəzi müsahibə üçün regionlara öz ekspertlərini, dövlət qurumları isə öz nümayəndələrini ezam edirlər. Bizim regionlardakı işçilərimiz də bu prosesə cəlb olunur. Amma bəzi namizədlər müsahibədə iştirak etmir. İştirak edən namizədlərin də bir çoxu bu prosesə qeyri-ciddi yanaşırlar. Onlar 5 illik sertifikat əsasında növbəti müsahibələrdə iştirak edə biləcəklərini, burada hər dəfə bir az təcrübə topladıqlarını və nə vaxtsa işə qəbul olunacaqlarını düşünürlər".

M. Abbaszadə dövlət qulluğuna qəbulun müsahibə mərhələsinə qeyri-ciddi yanaşmanı aradan qaldırmaq üçün qanunvericiliyə müəyyən dəyişikliklərin edilməsi ilə əlaqədar DİM tərəfindən təkliflərin hazırlanacağını qeyd edib.

YENİ MÜSAVAT
N 48 (6937) 1 mart 2018








# 2017-ci il "Azercell" şirkəti üçün ən uğurlu il olub

**Fevralın 28-də "Azercell" şirkəti 2017-ci ilin yekunları ilə bağlı mətbuat konfransı keçirib. Konfransda şirkətin prezidenti Vahid Mürsəliyev ötən ilin hesabatını açıqlayıb. Şirkət prezidenti qeyd edib ki, ötən il "Azercell" Bakı, Abşeron yarımadası ilə yanaşı, Gəncə, Bərdə, Şəmkir və Lənkəranda da 4G stansiyaları quraşdırıb:**

"Gücləndirilmiş 3G stansiyalarının sayı 1900-ü ötüb. 2017-ci ildə "Azercell" abunəçilərinin xidmətində olan ümumi radio baza stansiyalarının sayı 5506-ya bərabər olub. Bunlardan 4957-si 2G və 3G, 549 ədədi isə 4G stansiyaları olub. Şirkətin 4G internet istifadəçilərinin sayı keçən il əvvəlki illərlə müqayisədə 3 dəfə, mobil internetdən istifadə həcmi isə 50% artıb. Bundan başqa, LTE-dən istifadə 2 dəfə artıb".

Vahid Mürsəliyev həmçinin bildirib ki, ötən il 1400-dən artıq yeni şirkət öz rabitəsini "Azercell"ə etibar edərək korporativ müştərilər sırasına qoşulub.

Şirkət prezidenti onu da qeyd edib ki, 2011-ci ildən sonra "Azercell" şirkəti üçün ən uğurlu 2017-ci il olub:

""Azercell" Azərbaycan mobil rabitə sektorunda 48,2% bazar payına malikdir və ölkə ərazisinin 80%, əhalinin isə 99,8%-ni əhatə edir. Hazırda 4,5 milyon abunəçi "Azercell"in mobil xidmətlərinə üstünlük verir. Şirkət ötən il dövlət büdcəsinə 179,7 milyon manat, 21 il ərzində isə dövlət büdcəsinə 1 milyard 637,5 milyon manat vergi ödəyib. "Azercell" ölkədə telekommunikasiyanın inkişafına 2017-ci ildə 41 milyon 837 min 259 manat, 1996-2017-ci illər ərzində isə 1 milyard 467 milyon 779 min 40 dollar sərmayə yatırıb".

Vahid Mürsəliyevin sözlərinə görə, "Azercell" mobil rabitə operatoru LTE şəbəkəsi üzərindən səsli rabitə xidmətini (VoLTE) işə salmağa hazırlaşır. O, həmçinin qeyd edib ki, yeni rabitə texnologiyası artıq sınaqdan keçirilib:

"Xidmətin işə salınması üçün avadanlığı "Ericsson" şirkəti tədarük edəcək".

Konfransda o da qeyd edilib ki, fəaliyyət göstərdiyi 21 il ərzində çoxsaylı korporativ sosial məsuliyyət layihələrini həyata keçirən "Azercel" Telekom ötən il də ənənəsinə sadiq qalıb. Belə ki, 2017-ci ildə şirkət ölkədə müxtəlif sosial layihələrin həyata keçirilməsinə, sahibkarlığın, insan qaynaqlarının inkişafına ümumilikdə 1 milyon 800 min manat, 1996-2017-ci illər ərzində isə 18 milyon 718 min 649,12 ABŞ dolları həcmində vəsait sərf edib.

❑ **Xalidə GƏRAY**
**Musavat.com**

# Kriminal aləmin "Kritı Araz"ı məhkəmə qarşısında

## Həbsxanada yaradılan dəstə və ittihamlar

**Kriminal aləmdə "Kritı Araz" kimi tanınan Araz Fərəcov hakim qarşısına çıxarılıb. O, dəstə yaradaraq cinayət əməlləri törətməkdə ittiham edilir. İttihama görə, o, cinayət əməlini həbsdə olarkən törədib.**



Musavat.com xəbər verir ki, Araz Fərəcovla birlikdə dəstə üzvləri Vüqar Musayev, Renad Zahirov, Namiq Babayev, Elməddin Şahbazov, Elşən Əliyev və Xəyyam Qurbanlı da hakim qarşısına çıxarılıb.

Bu iş üzrə məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə davam edir.

Məhkəmədə prokuror ittiham aktını elan edib. Araz Fərəcov ittihamla özünü təqsirli bilməyib. Digər təqsirləndirilən şəxslər isə özlərini qismən təqsirli biliblər.

**Araz Fərəcov sərbəst ifadəsində bildirib ki, bu işlə bağlı heç bir günahı yoxdur:** "Məni həbsdə olanda DTX-yə apardılar. İki ay orada məni saxladılar. Sonra aparıb sanksiya verdilər. Mən bu adamların heç birini tanımamışam. Heç kimdən pul tələb eləməmişəm, heç kimdən pul almamışam. Dəstə da yaratmamışam".

**Araz Fərəcov bildirib ki, yatdığı kamerada telefon tapılıb:** "Ədliyə Nazirliyindən axtarış gəldi. Kameranı yoxladılar. İki telefon və aksesuarlar tapılıb. Mən heç kimdən pul tələb eləməmişəm. Kim mənim haqqımda nə danışıb, "duxu" varsa gəlib üzümə desin. Nədir, indi "srok"um qurtarır deyə, gərək 15 il artırasınız? Mənim günahım yoxdur".

Hakimin "burada əyləşən şəxslərə oğurluğa getməyi, cinayət törətməyi göstəriş vermisinizmi?" sualına A.Fərəcov "Mən heç kimi tanımıram, gərək "srok"um bitəndə 15 il də yükləyəsiz?" cavabını verib.

Təqsirləndirilən Renad Zahirov Araz Fərəcovu tanımadığını, amma Vüqar Musayevlə birgə oğurluq etdiyini deyib.

**Digər təqsirləndirilən Vüqar Musayev ifadəsində göstərib ki, yazıb-oxumağı bacarmır, savadı yoxdur:** "Mən oğurluğu Renadla etmişəm. Amma bizə kimsə göstəriş verməyib. Arazı 2013-cü ildə həbsxanada cəza çəkən vaxtlardan tanımışam. Amma mən Arazın tapşırığı ilə heç yerə getməmişəm. Biz uşaq deyilik ki, kimsə göstəriş versin. Saatlıya da oğurluğa getmişəm. Evdə adam olduğuna görə qayıdıb gəldik. Binədəki oğurluğa da Renadla getmişəm. Oradan qızıl-zinət əşyaları götürmüşük. Ümumi dəyəri 300-400 manat olardı".

**Təqsirləndirilən Namiq Babayev ifadəsində heç bir oğurluq hadisəsində iştirak etmədiyini, yalnız taksi sürücüsü kimi fəaliyyət göstərdiyini deyib:** "Vüqarla dost olmuşuq. Birlikdə məşqə getmişik. Birgə iş qurmaq niyyətimiz vardı. Vüqar da idmançıdır. Mən özüm firma rəhbəri olmuşam, əvvəllər dizayner işləmişəm. Son vaxtlar isə işlərimiz zəifləmişdi. Ona görə də sürücülük edirdim. Vüqargili öz maşınımla Binəyə aparmışam. Mənim onların nə işlə məşğul olduqlarından məlumatım olmayıb".

A.Fərəcovla eyni kamerada cəza çəkən Elməddin Şahbazov da ittihamlarla razılaşmayıb.

Oğurluq hadisələrinin onların təşkilatçılığı ilə törədilmədiyini deyib.

**Təqsirləndirilən Elşən Əliyev ifadəsində göstərib ki, maşından tapılan silahın ona aidiyyəti olmayıb. Həmin silah dostuna məxsus olub:** "Vüqar mənim dostumdur. Vüqarla birlikdə Binəyə getmişik. Oğurluğa aidiyyətim olmayıb. Polis maşını saxlayıb yük yerində lingi görəndə dedim ki, usta maşınıdır".

Prokurorun "sən "razborka" işlərinə baxırsan?" sualına Elşən Əliyev "xeyr, mən təsadüfən orada olmuşam, heç nədən xəbərim olmayıb" cavabını verib.

**Xəyyam Qurbanlı ifadəsində zərərçəkmiş Zemfira Qədirovanın anasının qohumu olduğunu deyib:** "Burda heç kimi tanımıram, bircə Vüqarı tanımışam. Bir dəfə gedib evin yerini göstərmişəm. Səhv hərəkət etmişəm. Zemfira anamın xalası qızı olub".

**Zərərçəkmiş Zemfira Qədirova ifadəsində qohumundan şikayətçi olmadığını deyib:** "Oğlum onkoloji xəstədir. Bu uşaqların hamısına Allah ruzi versin, onun-bunun qapısına göz dikməsinlər".

Məhkəmə prosesi martın 9-da davam edəcək.

İttihama görə, 8 saylı cəzaçəkmə məntəqəsində cəza çəkən Araz Fərəcov mütəşəkkil dəstəyə rəhbərlik edib. Dəstə üzvləri oğurluq, quldurluq və s. cinayətlərdə ittiham edilirlər.

Dəstə üzvləri - Vüqar Musayev, Renad Zahirov və Namiq Babayev ötən il aprelin 14-də DTX-nin əməliyyatı zamanı saxlanılıb.

İstintaqla müəyyən edilib ki, Araz Fərəcov Penitensiar Xidmətin 8 saylı cəzaçəkmə müəssisəsində cəza çəkərkən 2016-cı ilin dekabrın ayında əvvəldən tanıdığı Vüqar Musayev və digərləri mütəşəkkil dəstə təşkil ediblər.

Dəstə üzvləri Bakıda və bölgələrdə yayayış yerlərinə talamaq məqsədilə oğurluq və quldurluq hadisələri törədiblər. İttihamda qeyd edilib ki, bütün bunları Araz Fərəcov koordinasiya edib.

İttihama görə, Araz Fərəcovdan başqa Elməddin Şahbazov da həbsxanada ola-ola bu cinayətkar dəstənin üzvü olub. O da işləri içəridən koordinasiya edib.

❑ **İ.MURADOV**
**Musavat.com**

# Azərbaycanda sığorta mübahisələrinin məhkəməsiz həlli sistemi yaradılacaq

**Azərbaycan Sığortaçılar Assosiasiyasında (ASA) Müşahidə Şurasının görüşü keçirilib. ASA-dan "APA-Economics"ə verilən məlumata görə, görüşdə assosiasiyanın sədri Mustafa Abbasbəyli və Müşahidə Şurasının üzvü olan səkkiz sığorta və bir təkrarsığorta şirkətinin rəhbər şəxsləri iştirak edib.**

ASA-da komitələrin formalaşdırılması və mediasiya işinin təşkili, habelə, qurumun inzibati quruculuq məsələləri, o cümlədən, strukturunun və cari il üçün ştat cədvəlinin müzakirəsi və təsdiqi, sığorta bazarının peşəkar digər iştirakçılarının ASA-nın üzvlüyünə cəlb olunması, təlimlərin genişləndirilməsi, həmçinin, bazarın inkişaf perspektivləri hesab olunan digər məsələlər geniş müzakirəyə çıxarılıb.

Azərbaycanda ilk dəfə olaraq sığorta sahəsində mövcud olan mübahisəli məsələlərin məhkəməyə getmədən həlli istiqamətində mediasiya işinin təşkili barədə aparılmış müzakirələr nəticəsində beynəlxalq təcrübənin araşdırılmasına əsaslanan model üzrə müvafiq sistemin formalaşdırılması qərara alınıb.

Bazarın inkişaf perspektivləri hesab olunan sahələr arasında kənd təsərrüfatı sığortası, icbari əmlak sığortası, icbari avtomobil sığortası, həkimlərin peşə məsuliyyətinin sığortası və sığortaçılar forumunun keçirilməsi üzrə icra olunmuş, eləcə də həyata keçirilməsi planlaşdırılan tədbirlər haqqında fikir mübadiləsi aparılıb.

Görüşdə ASA tərəfindən sığorta sektorunun müxtəlif istiqamətləri üzrə təşkil olunan təlimlərin sayının və effektivliyinin artırılması və daha çox tələb olunan sahələr üzrə təlimlərin təşkil olunmasına dair müvafiq qərar qəbul edilib.

Qeyd edək ki, "Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyinin kollegial orqanı olan Müşahidə Şurası birliyin nəzarət orqanıdır.

# Bakıda keçmiş məhkumlardan silah götürüldü



**Sabunçu rayonunda üzərlərində qanunsuz olaraq odlu silah-sursat saxlayan və ya gizlədən şəxslərin aşkar edilməsi məqsədi ilə ardıcıl uğurlu əməliyyat tədbirləri həyata keçirilib. DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Sabunçu Rayon Polis İdarəsi 14-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər məhkum olunmuş, Maştağa qəsəbə sakini İmran Cavadov qanunsuz olaraq odlu silah saxlamaqda şübhəli bilindiyi üçün saxlanılıb.**





Onun evinə baxış keçirilən zamanı çarpayının altında gizlətdiyi 1 ədəd "Naqan" markalı tapança və 3 ədəd patron aşkar olunaraq götürülüb. Ekspertizaya təqdim olunan tapançanın istifadəyə yararlı olması barədə rəy verilib.

Rayon Polis İdarəsi Cinayət Axtarış Şöbəsi əməkdaşlarının həyata keçirdikləri digər bir əməliyyat nəticəsində isə əvvəllər məhkum olunmuş Balaxanı qəsəbə sakini Bəybala Qarabəyov saxlanılıb. Polis idarəsində hal şahidlərinin iştirakı ilə onun üzərində şəxsi axtarış keçirilən zaman əlindəki çantanın içərisindən sandıqcasında 10 ədəd patron "AKS-74" markalı avtomat aşkar olunaraq götürülüb.

Hər iki faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Tərkib eyni, qiymət fərqli: apteklərdəki qiymət fərqinin sirri

## Liya Bayramova: "Satışdakı dərmanların hər birinin keyfiyyəti yoxlanılır"

## Adil Qeybulla: "Sovet dövrü deyil ki, dərmanların qiymətində ümumiləşdirmə olsun"

**Vahid qiymət siyasəti sahibkarın deyil, daha çox əhalinin maraqlarına uyğun olsa da, bu həyata keçmədi. Bir neçə il öncə Azərbaycanda bütün apteklərdə eyni adlı dərmanların vahid qiymətə satılması ilə bağlı qərar müəyyən qarışıqlığa səbəb oldu. Bəzi apteklərdən dərmanlar yığışdırıldı, gizlədildi və beləcə vahid qiymət siyasəti də "suya düşmüş" oldu.**











Bu gün isə eyni adlı və tərkibli dərmanlar apteklərdə müxtəlif qiymətə satılır. Elə bu səbəbdən də həkim resept yazarkən xəstə və xəstə yaxınları bir-bir apteklər gəzməli, dərmanın qiymətləri ilə maraqlanmalı olurlar ki, bu da alıcılara vaxt itkisi ilə yanaşı, əsəb itkisinə başa gəlir. Bir neçə aptekdə apardığımız müşahidələrə əsasən deyə bilərik ki, eyni adlı dərmanlar arasındakı fərq kəskin şəkildə nəzərə çarpır. Qiymət fərqi olan dərmanlar daha çox hamilələr, uşaqlar üçün nəzərdə tutulan, həmçinin təbii otlardan hazırlanan dərmanlardır.

Məsələn, "Biogest" bir aptekdə 48, digərində 50, bəzilərində 45, depolarda isə 40 manata satılır. "Fraksiparin 0.6" bir aptekdə 14, digərində 15, Qara Qarayev metrosu yaxınlığında isə 12 manat 93 qəpiyə satılır. "Proloton depo"nun bir ampulası "Həzi Aslanov" metro stansiyası yaxınlığındakı apteklərdə 7-8 manat arasında, "Neftçilər" yaxınlığındakı aptekdə isə 6 manat 90 qəpiyə satılır. Aptek satıcılarından eyni adlı və tərkibli dərmanların niyə fərqli qiymətə satıldığını soruşduqda onlar MDB ölkələrindən gətirilən dərmanların başqa, xaricdən gətirilənlərin isə tamamilə başqa qiymətə satıldığını bildirdilər. Hətta eyni tərkibli dərmanlar var ki, məhz gətirildiyi ölkəyə görə bəzən bir birindən 5-10 dəfə baha qiymət fərqi ilə satılır. Alıcıların isə bəziləri ucuz satılan dərmanlara qaçsa da, bunun tam əksi olaraq bahalı dərmanın daha keyfiyyətli olduğunu deyənlər və buna üstünlük verənlər də var.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova qeydiyyatdan keçən və apteklərdə satılan dərmanların hər birinin keyfiyyətinin yoxlanıldığını, ancaq qiymətlərin təyin edilməsinin Səhiyyə Nazirliyinin səlahiyyətində olmadığını dedi.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla apteklərdə qiymətləri tənzimləməyin bazarla bağlı olduğunu dedi: "Apteklər dərmanların satışı ilə məşğul olan bir kommersiya müəssisələridir. Tarif Şurası bir ara buna müdaxilə etdi. Ancaq gördünüz ki, bu müdaxilənin bir əhəmiyyəti olmadı. Bəzi dərmanlar yoxa çıxdı, bəzilərini bir müddət olmadı, bəzilərinin də qiymətləri dəyişdi və sairə. Ayrı-ayrı apteklərdə dərmanların fərqli qiymətə olması çox təbii bir prosesdir. Bu, aptekin böyüklüyündən, mərkəzdə yerləşməsindən, icarə haqqından da asılıdır. Sovet dövrü deyil ki, bütün dərmanların qiymətində ümumiləşdirmə olsun. Aptek depodan gedib dərman götürür və üzərinə 18 faiz qoyub satışa buraxır. Apteklər dərmanlara istənilən qiyməti qoymaqda müstəqildir. Əslində Azərbaycana gələn dərman vasitələrinin qiymətləri haqqında biz o qədər düşünməməliyik. İcbari tibbi sığorta və bura daxil olan vacib dərmanlar haqqında düşünməliyik. Bu məsələ həll olunsa, insanlar bu qədər əziyyət çəkməzlər. Antibiotiklərin müəyyən sırası, iltihab əleyhinə maddələrin, hormonal preparatların və sairə çox saylı dərmanların nümayəndələrinin dövlət sığorta paketinə daxil edilməsi o deməkdir ki, bunlar pulsuz olaraq xəstələrə verilməlidir. Belə olan təqdirdə isə xəstə artıq düşünmür ki, hansı aptekdə qiymət necədir. Təbii ki, eyni zamanda daha keyfiyyətli və bahalı antibiotiklər və digər dərmanlar da ola bilər və insanlar istədiyi halda onlardan istifadə edə bilər. Bu baxımdan dərmanların qiymətinin unikal satışı dünyanın heç yerində yoxdur. Siz Almaniyaya da getsəniz görəcəksiniz ki, müxtəlif yerlərdə qiymətlərdə fərqlər var".**

Onu da qeyd edək ki, son zamanlarda apteklərin şüşələrində "pulsuz göz müayinəsi" yazısına da rast gəlirik. "Həzi Aslanov" metro stansiyası yaxınlığında bu cür xidmət təklif edən apteklərdən birinə yaxınlaşdıq. İçəri daxil olduqda pulsuz göz müayinəsi edib gözümüzə uyğun eynəyi yazdıqlarını bildirdilər. Göz müayinəsi edəcək şəxsin göz həkimi olub-olmadığını soruşduqda, o, bu sahənin mütəxəssisi olduğunu desə də, bunu təsdiq edəcək diplom və ya sertifikat göstərə bilmədi. Digər aptekdə isə satıcı göz müayinəsinin həyata keçdiyini, ancaq bunu edən şəxsin həkim yox, sadəcə olaraq, bu işdən başı çıxan birinin olduğunu dedi.

Xatırladaq ki, göz insan həyatı üçün ən önəmli orqandır və gözlə oyun olmaz. Buna görə də mütəxəssislər əhaliyə bu cür göz müayinəsi təklif edən apteklərə gözlərini müayinə etdirərkən diqqətli olmağı tələb edir. Bu cür xidmət təklif edən şəxsdən bu sahəyə dair biliyini təsdiq edəcək diplom və ya sertifikat tələb edilməsinin vacib olduğunu bildirən mütəxəssislər mümkün olmadıqca bu cür insanların təyin etdikləri optik eynəklərdən istifadə etməməyi, yalnız professional göz həkimi müayinəsindən sonra hər hansı bir addım atmağı tövsiyə edir.

**❑ Günel MANAFLI,**
**"Yeni Müsavat"**

# ««Qış qurtardı» demək üçün hələ tezdir»- ETSN

## Qonşu ölkələrdə havaların pisləşməsi azərbaycanlıları da təlaşlandırıb

**Qış fəslini şaxtasız və qarsız başa vurmaqdayıq. Adətən daha sərt keçən fevral ayını da mülayim şəkildə yola saldıq. Bəzən belə situasiyalarda "qış gecikib" deyirlər. Təcrübə də göstərir ki, bəzən mart ayı qarlı, şaxtalı hava ilə müşayiət edilir. Qeyd edək ki, qonşu Rusiya və Türkiyədə bu günlərdə qar yağmağa başlayıb.**



Hətta Rusiyanın Fövqəladə Hallar Nazirliyi (FHN) Moskva və Moskvaətrafı vilayətlərdə hava şəraitinin kəskin şəkildə aşağı düşməsi ilə bağlı əhaliyə xəbərdarlıq edib: "Anomal soyuqların isti iqlim normasından 15-18 dərəcə aşağı enəcəyi gözlənilir. Havanın temperaturu gecə 27-22, bəzi yerlərdə isə 32 dərəcə aşağı olacaq".

Qonşu ölkələrdə havaların kəskin soyuması insanlarda suallar yaradıb ki, gerçəkdənmi qış geri qalıb və mart, aprel ayları şaxtalı, qarlı keçə bilər?

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ( ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova yaxın iki gün ərzində hava şəraitində heç bir dəyişiklik olmayacağını deyib:** "Mart, aprel aylarının soyuq, şaxtalı keçib keçməyəcəyi ilə bağlı nəsə demək bir qədər tezdir. Amma fevral ayı bir qədər mülayim keçdi və yağıntılı oldu. Yağıntılar da yağış şəklində oldu. Şaxtalı hava şəraiti Bakıda müşahidə olunmadı. Lakin bölgələrdə şaxta da oldu, yağış da yağdı. Dağ və dağətəyi rayonlarda isə yağıntı əsasən qar şəklində oldu. Bəzi yerlərdə bu intensiv oldu. Lakin paytaxtda isə yağıntı yağış şəklində oldu. Amma "qış arxada qaldı" demək bir qədər tezdir".

Martın 1-nə olan hava proqnozlarına görə Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gecə və axşam bəzi yerlərdə duman, çiskin olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun Abşeron yarımadasında gecə 4-6, gündüz 7-10, Bakıda gecə 4-6, gündüz 8-10 dərəcə isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək. Rayonlarda isə hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi dağlıq ərazilərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-7 dərəcə isti olacağı gözlənilir.

**❑ Günel MANAFLI,**
**"Yeni Müsavat"**



# Bu il 700-dən çox avtobusda vahid kart sisteminə keçiləcək

**2018-ci ildə 700-dən çox nəqliyyat vasitəsi kart sisteminə keçəcək. "APA-Economics" xəbər verir ki, bunu Bakı Nəqliyyat Agentliyinin (BNA) baş direktorunun müşaviri Mübariz Abbasov deyib.**

Onun sözlərinə görə, ödəniş sistemində vahid karta keçid ictimai nəqliyyat sahəsində şəffaflığı ortaya çıxarıb. "Kart sistemi, nağdsız ödəniş sistemi artıq təcrübədə sınaqdan çıxıb. Biz agentlik olaraq çalışırıq ki, əhatə dairəmizi genişləndirək. Bu sistem sürücü məsuliyyətini artır, sərnişinlə ünsiyyət olmur. Sürücünün məsuliyyəti daha çox olur. Sürücü artıq planla işləmir, dayanacaqdan kənar saxlamır, sərnişinlərə qarşı kobudluq etmir," - deyə M. Abbasova bildirib.

YENİ MÜSAVAT

Son səhifə

N 48 (6937) 1 mart 2018



# Britaniyalı köhnə dəm çaynikini 575 min funt sterlinqə satıb

Britaniyalı tərəfindən 2 il bundan öncə 15 funt sterlinqə alınmış, qapağı itmiş çini çaydan iki sonra auksionda 575 min funt sterlinqə satılıb. Bu haqda lenta.ru saytı xəbər verib. "Woolley & Wallis" auksion evi tərəfindən satışı təşkil olunan çaydan ekspertlərin təxminindən 23 dəfə baha qiymətə satılıb. Son olaraq qiymət artımını londonlu diller Roderik Celliko edib. O, Nyu-Yorkun metropoliten muzeyinin maraqlarını təmsil edib. Bu ajiotajın səbəbi çaydanın XVIII əsrdə Amerikanın ilk çini qab fabrikində hazırlanmasıdır. Bu fabrikin istehsalı olan 7 qab aşkara çıxarılıb və müxtəlif muzeylərdə, kolleksiyaçılarda saxlanılır.



2016-cı ildə britaniyalı antikvar həvəskarı bu çaydanı onlayn auksionda cəmi 15 funt sterlinqə satın alıb.

Həmin vaxt onun heç ağlına da gəlmirdi ki, bu çaydanın gerçək dəyəri olduqca yüksəkdir.

## Qışda günlər qısalır deyə qadınlar aqressivləşir

İndiana Universitetinin mütəxəssisləri maraqlı araşdırma edib. Araşdırma göstərib ki, qışda qadınlar daha aqressiv olurlar. Buna səbəb isə günlərin qısalması göstərilir.

Xamyaklar üzərində aparılan araşdırma göstərib ki, qadın hormonal mexanizmi onların aqressivliyini şərtləndirən əsas amildir. Kişi orqanizmində isə aqressiya başqa mexanizmlə idarə olunur.

Bioloq Nikki Rendonun fikrincə, bu araşdırma gələcək tədqiqatlar üçün baza rolunu oynayacaq. Belə ki, qadın orqanizmində sutkanın qaranlıq zamanında melatonin artır, sutkanın işıqlı zamanlarında isə azalır. Bu isə qadınların davranışını şərtləndirir.

"Cinsi hormonlar qadın və kişilərdə aqressiya üzərində nəzarətin təmin edilməsində mühüm rol oynayır",-deyə bioloq vurğulayıb.

# Gecələr işləyən kişilərdə xərçəng xəstəliyi riski var



Kvebeksk universitetinin əməkdaşları apardıqları tədqiqatlardan sonra belə nəticəyə gəliblər ki, kişilər xərçəng xəstəliyindən daha çox əziyyət çəkirlər. Bu, ondan irəli gəlir ki, onlar gecə növbəsində daha çox çalışırlar. Gecələr işləməyə vərdiş edən kişilərdə prostat vəzi xərçəngi yaranması ehtimalı gündüz növbəsində çalışan kişilərdən əhəmiyyətli dərəcədə çoxdur. Həmçinin kişilər sidik kisəsi, bağırsaq və ağ ciyərlərlə də bağlı ciddi problemlər yaşaya bilərlər. Onkoloji xəstəliklər istənilən orqana yayıla bilər.

Gecələr çalışmağı xoşlayan qadınların da səhhətində problem yaranması mümkündür. Onların gecə fəaliyyəti süd vəzi xərçənginə gətirib çıxara bilər. Kanada universitetinin mütəxəssisləri belə bir statistika çıxarıblar: 10 il ərzində gecələr çalışan kişilərdə 27% hallarda xərçəng xəstəliyi aşkarlanır.

Alimlər o faktı da təsdiqləyiblər ki, günorta 30 dəqiqə yatmaqla xərçəngin inkişafının qarşısını almaq olar. O da qeyd olunur ki, əgər kişilər uzun illər günə 10 saatdan çox yatarlarsa, bu zaman xərçəng hüceyrələrinin inkişaf riski yüksələr. Yuxarıda qeyd olunmuş verdişlər zamanı onkoloji xəstəliyin yaranma ehtimalı 43%-ə qədər artır. Gecə növbəsində çalışan kişilərin 76%-də ağ ciyər xərçəngi aşkarlanıb, 70 % kişilərdə isə sidik kisəsi problemləri yaranıb.

Alimlər deyirlər ki, problemlər əsasən melatonin ifrazının pozulmasından irəli gəlir. Bu maddə yuxu rejimini nizamlayır. Beləliklə, yuxu rejimi pozulduqda - gecə ilə gündüzün yeri dəyişdirildikdə orqanizmdə bir çox proseslər sıradan çıxır. Mütəxəssislərin fikrincə, on illərlə gecələr çalışmaq praktik olaraq onkoloji xəstəliyi qaçılmaz edir.




QOÇ - Evdə oturmağa lüzum yoxdur. Çünki ailə üzvlərinizlə, eləcə də qonum-qonşularla mübahisə gözlənilir. Əsas diqqəti fəaliyyətə yönəldin ki, gözlənilən xoşagəlməzliklər baş verməsin.

BUĞA - Maraqlı hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, çoxdan bəri əlaqə saxlaya bilmədiyiniz adamlarla rastlaşasınız. Günün ikinci yarısında işlə bağlı riskə getmək olar.

ƏKİZLƏR - Həddindən ziyadə düşərli təqvimdir. Təxminən saat 12-dən 17-yə qədər rastlaşdığınız hər bir hadisə ürəyinizcə olacaq. Təzə xəbər və ya təkliflər də ala bilərsiniz. Qətiyyətli olun.

XƏRÇƏNG - Bu gün sizə çoxsaylı fikir mübadiləsi aparmaq səmərə verəcək. Gələcək karyeranız məhz bundan asılıdır. Riskli işlərdənsə uzaq olun. Ailə-sevgi münasibətlərində inad etməyin.

ŞİR - Özünüzü gərginliyə atmayın. Səmərəsiz danışıqlarda, sıxıntılı görüşlərdə iştirak etməkdən çəkinin. Əgər maraqlı heç nə olmasa, yaxın adamlarınıza baş çəkib süfrə başında "dərdləşin".

QIZ - Ulduzlar müdafiənizdə durub. Bu səbəbdən də Tanrıya xoş gedən bütün işləriniz müsbət sonluqla başa çatacaq. Səmərəli təkliflər, xoş xəbərlər ovqatınızı xeyli yüksəldəcək.

TƏRƏZİ - Gün ərzində bir neçə aktiv məqam yaşayacaqsınız. Hətta şəxsi büdcənizdə irəliləyişlər də mümkündür. Axşama yaxınsa sevindirici hadisələrin, xoş ovqatın şahidi olacaqsınız.

ƏQRƏB - "Hirsli başda ağıl olmaz"lığını yəqin ki, bilirsiniz. Xüsusən də günün birinci yarısını sakit tərzdə başa vurmağa çalışmalısınız. Axşamsa ürəkaçan hadisələrin iştirakçısına çevriləcəksiniz.

OXATAN - Sevgidə mövcud olan soyuqluğu aradan qaldırın. İmkan verməyin ki, davranışlarınız dedi-qodu səviyyəsində formalaşsın. Təcrübəli adamlarla işbirliyi qurmaqdan çəkinməyin.

OĞLAQ - Martın bu ilk yarpağı sizin üçün xüsusi əhəmiyyət kəsb edəcək. Ulduzların düzümü uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağı tövsiyə edir. Qərarlarınızda məsuliyyətli olun.

SUTÖKƏN - Ulduzlar əsəblərinizin sakitləşməsindən fərəh duyur. Əgər təmkininizi beləcə tənzimləsəniz, heç bir qanqaraçılıq olmayacaq. Gün ərzində maraqlı görüş və maddi irəliləyiş də gözlənilir.

BALIQLAR - Kifayət qədər düşərli ərəfədir. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Amma kiməsə yalan vəd verməyin. Qonaq getmək sizə rahatlıq gətirə bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar yatanda arıqlayır



Amerikalı alimlərin yeni araşdırmaları zamanı üzə çıxıb ki, qadınların arıqlamaq üçün güclü dietaya oturmaları heç də istənilən effekti vermir. Bunun əsas səbəbi isə xanımların gecə tam yuxu almamaları ilə bağlıdır. Belə ki, tam yuxu alan xanımlar digərləri ilə müqayisədə iki dəfə artıq əlavə çəkini tullaya biliblər. Mütəxəssislərin qənaətincə, əgər xanımlar tam yuxu almırlarsa, onların bədənlərində güclü yorğunluq hissi yaradan hormonların sayı artır. Bu isə son nəticədə aclıq hissini ortaya çıxarır. Ekspertlər 4 həftə ərzində 10 könüllü üzərində müşahidələr aparıblar. Bu xanımların artıq çəkiləri ləğv olsa da, sağlamlıqlarına heç bir ziyan da gəlməyib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100